RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 208 (8231) ŞƏNBƏ, 21 sentyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Neftimiz müstəqil Azərbaycan dövlətinə xidmət göstərir



## “Əsrin müqaviləsi”nin faydasını xalqımız görür

**Sentyabrın 20-də Heydər Əliyev Mərkəzində “Əsrin müqaviləsi”nin 25 illiyi və Neftçilər Günü münasibətilə mərasim keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.**
**Dövlət başçısı tədbirdə nitq söylədi.**

## Prezident İlham Əliyevin nitqi

- Hörmətli xanımlar və cənablar, əziz dostlar.

Bu gün Azərbaycanda çox əlamətdar bir gündür. Bu gün biz Neftçilər Gününü qeyd edirik. Bütün Azərbaycan neftçilərini peşə bayramı münasibətilə ürəkdən təbrik edirəm, onlara yeni uğurlar, yeni qələbələr arzulayıram.

Neftçi peşəsi Azərbaycanda həmişə çox hörmətli peşə olub. Bu gün də belədir, sabah da belə olacaq. Azərbaycan neftçiləri ölkəmizin iqtisadi qüdrətinin artırılması istiqamətində çox böyük işlər görüblər, böyük töhfələr veriblər. Bu gün Azərbaycanın neft-qaz sektoru öz yeni inkişaf dövrünü yaşayır.

Bildiyiniz kimi, dünyada sənaye üsulu ilə ilk neft məhz Azərbaycanda hasil edilmişdir. Bu gün şəhərimizin mərkəzində dünyanın ilk neft quyusu bir turizm obyekti kimi fəaliyyət göstərir. O gündən bu günə qədər Azərbaycanda böyük həcmdə neft hasil edilmişdir. Bildiyiniz kimi, dəniz yataqlarından da dünya miqyasında ilk neft Azərbaycanda hasil edilmişdir və bu gün biz Azərbaycan neft sənayesinin yeni mərhələsinin şahidiyik.

Bu gün Azərbaycan nefti müstəqil Azərbaycan dövlətinə xidmət göstərir. Biz hamımız yaxşı xatırlayırıq ki, “Əsrin kontraktı”nın imzalanması ölkəmizin yeni mərhələyə qədəm qoymasına şərait yaratdı. 1990-cı illərin əvvəllərində gənc müstəqil Azərbaycan dövləti çox böyük çətinliklərlə, çağırışlarla üz-üzə qalmışdı. Ovaxtkı hakimiyyətin səriştəsizliyi, yarıtmaz fəaliyyəti, xəyanətkar addımları ölkəmizi uçurum kənarına qoymuşdu. 1991-1993-cü illər ağır faciəli illər kimi tariximizdə qalacaq. Ölkəmizi böhran bürümüşdü - siyasi, iqtisadi böhran, sənaye iflic vəziyyətdə idi. İqtisadi sahədə yaşanan tənəzzül gənc müstəqil ölkənin inkişafı üçün çox böyük maneələr törədirdi.

Azərbaycan xalqı özünə xas müdriklik nümayiş etdirərək 1993-cü ildə Ulu Öndər Heydər Əliyevə üz tutub, onu hakimiyyətə dəvət etmişdir. O gündən bu günə qədər Azərbaycan sabitlik dövrü yaşayır, Azərbaycan inkişaf yolu ilə gedir. 1993-cü ildən bu günə qədər aparılan islahatlar, görülmüş işlər Azərbaycanı dünya miqyasında uğurla inkişaf edən ölkə kimi tanıdır. O vaxt iqtisadi və siyasi sahədə yaşanan böhran böyük təhlükə mənbəyi idi. Heydər Əliyevin cəsarəti, uzaqgörənliyi, fədakarlığı Azərbaycanı bütün bəlalardan qoruya bilmişdir. Vətəndaş müharibəsinə son qoyuldu, Azərbaycan islahatlar yoluna qədəm qoydu. Müstəqil dövlətin Konstitusiyası qəbul edildi. Qeyri-qanuni silahlı birləşmələr tərk-silah edildi, ölkədə qayda-qanun yaradıldı. Əlbəttə ki, ölkəmizin gələcək inkişafı ilə bağlı ciddi addımlar atılmalı idi və “Əsrin kontraktı”nın imzalanması bu addımlar sırasında xüsusi yer tutur.

“Əsrin kontraktı”nın imzalanması tarixi hadisədir. Bu kontraktın faydasını bu gün Azərbaycan dövləti, Azərbaycan xalqı görür. Təsəvvür etmək çətindir ki, əgər “Əsrin kontraktı” imzalanmasaydı, Azərbaycan o vaxt nəyin hesabına öz iqtisadi inkişafını təmin edə bilərdi. Biz nəyin hesabına uğurla inkişaf edə bilərdik. “Əsrin kontraktı”nın bizim müstəqil tariximizdə xüsusi yeri, xüsusi rolu var. Bu kontraktın imzalanması da asan məsələ deyildi. Uzun müddət ərzində aparılan danışıqlar nəticə vermirdi. Əlbəttə, hər iki tərəf çalışırdı ki, özü üçün daha əlverişli və məqbul şərtləri əldə etsin. Hesab edirəm ki, biz “Əsrin kontraktı”nın timsalında beynəlxalq əməkdaşlığın müsbət tərəfini görürük. Çünki həm sərmayə qoyan tərəf - investorlar, həm də ki, Azərbaycan dövləti maraqlar balansını taparaq ən məqbul şərtlərlə özləri üçün bu kontraktı imzaladılar. Əgər investorları kontraktların şərtləri qane etməsə, onda əlbəttə ki, heç bir kontraktın imzalanmasından söhbət gedə bilməz. Eyni zamanda, Azərbaycan dövlətinin maraqları da tam şəkildə təmin edildi. Bu gün kontraktın icrasının nəticəsi olan yeniləşən, müasirləşən, güclənən Azərbaycan bu sözlərimin əyani sübutudur.

Mən danışıqların son mərhələsini yaxşı xatırlayıram. Amerikanın Hyuston şəhərində bir aydan çox danışıqlar gedirdi. Bu danışıqlar həlledici rol oynamışdır.

*Ardı 2-ci səh.*

## “Əsrin müqaviləsi”nin 25 illiyi və Neftçilər Günü münasibətilə Azərbaycanın neft sənayesi işçilərinə

Hörmətli neft sənayesi işçiləri!

Sizi ölkəmizin həyatında mühüm strateji rol oynamış “Əsrin müqaviləsi”nin 25 illiyi və peşə bayramınız olan Neftçilər Günü münasibətilə ürəkdən təbrik edirəm.

“Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü” haqqında 1994-cü il 20 sentyabr tarixli saziş müstəqil Azərbaycanın gələcək inkişafının başlıca mənbəyinə çevrilmiş, onun dinamik templə sonrakı davamlı yüksəlişini təmin etmişdir.

Dövlət müstəqilliyimizin ilk illərindəki gərgin geosiyasi şəraitdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi qətiyyəti nəticəsində imzalanmış və yüksək dəyərləndirilərək “Əsrin müqaviləsi” adını qazanmış bu saziş respublikamızın iqtisadi suverenliyini əks etdirən ilk beynəlxalq neft anlaşması idi. Müqavilə bütövlükdə regionun enerji xəritəsini köklü şəkildə dəyişərək Xəzər dənizi hövzəsində əməkdaşlığa əlverişli zəmin yaratmışdır. Bünövrəsi Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş bu enerji strategiyasının ölkəmizin qısa vaxtda dünya iqtisadiyyatına inteqrasiyası və beynəlxalq mövqelərinin güclənməsində müstəsna əhəmiyyəti vardır.

Azərbaycan nefti və qazı bu gün dünyada sülhün, təhlükəsizliyin və tərəqqinin amillərindəndir. Ölkəmizin təşəbbüsü və liderliyi ilə “Cənub qaz dəhlizi” çərçivəsində gerçəkləşdirilən işlər Azərbaycanın potensialını nümayiş etdirir. Respublikamız, eyni zamanda, aparıcı xarici neft şirkətləri ilə ötən illərdə uğurlu əməkdaşlıq formatı reallaşdırmışdır. Tərəfdaşların təşəbbüsü ilə “Əsrin müqaviləsi”nin yenidən işlənməsi və sazişin müddətinin 2050-ci ilədək uzadılması bunun aydın təzahürüdür. Regional və qlobal əhəmiyyətli neft, qaz layihələrində ölkəmizi layiqincə təmsil edən və dünya enerji bazarında mövqelərini möhkəmləndirən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin həyata keçirdiyi investisiya layihələri isə ölkəmizin iqtisadi qüdrətini təcəssüm etdirir.

“Əsrin müqaviləsi”nin misilsiz uğurları neftçilərimizin fədakar əməyinin bəhrəsidir. Məhz onların sayəsində Azərbaycan neft sənayesinin geniş infrastrukturuna malik olub, dünyada neft ölkəsi kimi tanınmışdır. Neftlə bağlı ən müxtəlif istiqamətlər üzrə görkəmli alim və mütəxəssislərimiz zəngin neft-qaz sərvətlərinin Vətənimizin yüksəlişi naminə istifadəsi üçün nəhəng işlər görmüş, ölkəmizin neft salnaməsinə parlaq səhifələr yazmışlar.

Azərbaycan neftçilərinin indiki nəsli olaraq siz onların yolunu böyük müvəffəqiyyətlə davam etdirirsiniz. Bu yolda hamınıza yeni nailiyyətlər arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 sentyabr 2019-cu il*

## Birinci vitse-prezident Mehriban ƏLİYEVA: “Əziz neftçilər, biz sizinlə, sizin peşə uğurlarınızla fəxr edirik”



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva “Əsrin müqaviləsi”nin 25 illiyi ilə əlaqədar İnstagram səhifəsində paylaşım edib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentin paylaşımında deyilir: “Əziz dostlar, iyirmi beş il əvvəl ölkəmizin iqtisadi müstəqilliyinin təməlini qoyan “Əsrin müqaviləsi” imzalanıb.

Azərbaycanda neftçi peşəsi hər zaman şərəfli və hörmətli peşələrdən biri sayılıb və sayılır. Əziz neftçilər, biz sizinlə, sizin peşə uğurlarınızla fəxr edirik. Qəhrəmanlığa bərabər əməyinizə, fədakarlığınıza görə çox sağ olun.

Sizi bu yubiley münasibətilə ürəkdən təbrik edirəm, sizə möhkəm cansağlığı, yeni nailiyyətlər arzulayıram”.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

“Əsrin müqaviləsi”nin imzalanmasının 25-ci ildönümü münasibətilə Sizə və Azərbaycan Respublikasının xalqına Amerika Birləşmiş Ştatları adından salamları və təbrikləri çatdırmaq istəyirəm.

Bu il 25-ci ildönümün qeyd edilməsi Azərbaycanın dünya bazarlarına öz zəngin enerji ehtiyatlarını davamlı şəkildə çatdırdığı vaxta təsadüf edir. Son iyirmi beş il ərzində Birləşmiş Ştatlar öz enerji ehtiyatlarının işlənilməsində, Avropanın və dünyanın enerji təhlükəsizliyinə töhfə verilməsində və müstəqil dövlət kimi öz siyasi xəttinin formalaşdırılmasında Azərbaycanın göstərdiyi səylərdə onun qətiyyətli tərəfdaşı olub. 1994-cü ildə Qərb şirkətləri ilə bu müqaviləni imzalamaqla və Bakı-Tbilisi-Ceyhan boru kəmərini inşa etməklə Azərbaycan dünya bazarlarında əsas neft təchizatçısına çevrildi və ilk dəfə olaraq Xəzər dənizi ilə Aralıq dənizi arasında birbaşa enerji bağlantısı yaratdı.

Azərbaycan yenə də təşəbbüskar rolunda çıxış edərək, bu dəfə “Cənub qaz dəhlizi” vasitəsilə təbii qaz ixrac etməklə Avropanın enerji təhlükəsizliyinə strateji əhəmiyyətli töhfə verir. Xəzər Neft və Qaz Sərgisinin 26-cı ildönümü münasibətilə Prezident Tramp öz məktubunda qeyd etdiyi kimi, biz Sizin səylərinizi tam dəstəkləyirik və hesab edirik ki, Azərbaycanın iqtisadi uğuru regionun sabitliyi və çiçəklənməsi üçün əhəmiyyətlidir.

Uğurlu enerji əməkdaşlığımız həm iqtisadi işbirliyimizi, həm təhlükəsizlik sahəsində tərəfdaşlığımızı, eləcə də insan hüquqları, fundamental azadlıqlar və demokratik idarəçilik sahəsində davamlı fəaliyyətimizi əhatə edən strateji münasibətlərimizə müsbət töhfə vermişdir.

Birləşmiş Ştatlar bütün bu sahələrdə birgə işimizin davam etməsini və dərinləşməsini səmimiyyətlə arzulayır. Bu mühüm tarixi hadisənin ildönümü münasibətilə təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

*Səmimiyyətlə,*

***Maykl POMPEO,***
***Amerika Birləşmiş Ştatlarının Dövlət katibi***

## Malta Respublikasının Prezidenti zati-aliləri cənab Corc Vellaya

Hörmətli cənab Prezident!

Malta Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Malta xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 sentyabr 2019-cu il*

## M.N.İmanovanın Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mehriban Natiq qızı İmanova Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 sentyabr 2019-cu il*

## 2020-ci il Azərbaycanın sosial-iqtisadi inkişafında mühüm mərhələ olacaq

### Gələn ilin dövlət büdcəsi layihəsində gəlir və xərclərin artımı bunu deməyə əsas verir

Ötən 16 il Azərbaycanın öz tarixinin ən qüdrətli dövrünü yaşaması ilə səciyyəvidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamız bu dövrdə həm iqtisadi inkişaf baxımından ortaya mükəmməl nümunə qoyub, həm bölgənin liderinə, həm də beynəlxalq miqyasda söz sahibi olan nüfuzlu dövlətə çevrilib.

### 2020-ci ilin büdcə layihələri reallıqlara və çağırışlara uyğun hazırlanıb

Həyata keçirilən inkişaf kursu 2019-cu ilin ötən dövründə də ölkəmizin davamlı yüksəlişini təmin edərək müsbət nəticələrin əldə edilməsini şərtləndirib. Bu mənada sona yaxınlaşan 2019-cu il Azərbaycanın iqtisadi inkişafı baxımından əlamətdardır. Bu müddətdə ötən ilin eyni dövrü ilə müqayisədə iqtisadiyyatda 2,4 faiz artımla ümumi daxili məhsul istehsal edilib, qeyri-neft sektorunda isə 3,2 faiz çoxalma qeydə alınıb.

İqtisadiyyat Nazirliyinin proqnozlarına əsasən, bu meyillərin 2020-ci ildə də davam edəcəyi gözlənilir. Bu proqnoza görə, gələn il ölkədə ÜDM-in real iqtisadi artımı 2,4 faiz olmaqla 82,7 milyard manat, o cümlədən qeyri-neft ÜDM-in artımı 3,3 faiz olmaqla 54,2 milyard manat təşkil edəcəkdir.

Bir neçə gün əvvəl Maliyyə Nazirliyinin ictimaiyyətə təqdim etdiyi “Azərbaycan Respublikasının 2020-ci ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair açıqlama” da bu müsbət notlar üzərində köklənməklə növbəti ilin dövlət və icmal büdcələrinin əsas göstəricilərini diqqətə çatdırır. Açıqlama 2020-ci il və orta müddətli dövrə dair makroiqtisadi proqnozları, büdcə-vergi siyasətinin əsas istiqamətlərini, dövlət büdcəsinin prioritet gəlir və xərclərinin, habelə dövlət borcuna dair əsas məlumatları əhatə etməkdədir.

Dövlət büdcəsi ölkənin xərcləri və onların ödənilməsi mənbələri üzrə illik maliyyə planıdır. Məqsəd ölkənin iqtisadi, sosial və digər strateji proqramlarının maliyyələşdirilməsini, dövlətin funksiyalarının həyata keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vəsaitinin toplanmasını və istifadəsini təmin etməkdir.

*Ardı 4-cü səh.*

# Neftimiz müstəqil Azərbaycan dövlətinə xidmət göstərir

## “Əsrin müqaviləsi”nin faydasını xalqımız görür

*Əvvəli 1-ci səh.*



Kontraktın qüvvəyə minməsi Azərbaycanı yeni inkişaf yoluna çıxardı və bu gün “Əsrin kontraktı” bizim neft sənayemizin inkişafında öz rolunu oynayır. İki il bundan əvvəl kontraktın müddətinin 2050-ci ilə qədər uzadılması göstərir ki, 1994-cü ildə nə qədər düzgün qərar qəbul edilmişdir.

“Əsrin kontraktı” Ulu Öndər Heydər Əliyevin neft strategiyasının tərkib hissəsidir, onun başlanğıcıdır. Məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi sayəsində Azərbaycan özünü dünyaya təqdim edə bildi. Tarixdə ilk dəfə xarici şirkətlər Xəzər dənizində neft-qaz yataqlarının işlənilməsində iştirak etməyə başlamışlar. “Əsrin kontraktı”nın imzalanması nəticəsində on minlərlə yeni iş yeri yaradılmışdır. Azərbaycanda minlərlə şirkət bu kontraktın icrasında podratçı kimi fəaliyyət göstərir. Yəni, “Əsrin kontraktı”nın çox böyük faydası var.

Eyni zamanda, o vaxt Azərbaycan dünyada riskli bir ölkə kimi tanınırdı. Ermənistanın ölkəmizin torpaqlarını işğal etməsi, gedən vətəndaş müharibəsi, iqtisadi çətinliklər, bir daha demək istəyirəm ki, Azərbaycanı investisiya üçün əlverişli ölkə kimi təqdim edə bilməzdi. O vaxt Ulu Öndər Heydər Əliyevin xidmətlərindən biri də o olmuşdu ki, investorları inandıra bilmişdi və Dövlət Neft Şirkətinin rəhbərliyi - bizim dostumuz rəhmətlik Natiq Əliyev, Xoşbəxt Yusifzadə, Valeh Ələsgərov, mən və digər əməkdaşlar çalışırdıq investorları inandıraq ki, Azərbaycana sərmayə qoymaq olar, sərmayə qoymaq lazımdır və Azərbaycana bu gün sərmayə qoyan sabah böyük fayda görəcək. Belə də oldu. “Əsrin kontraktı”nın icrasına qoyulmuş sərmayə artıqlaması ilə qaytarıldı. Xarici investorlar milyardlarla dollar gəlir əldə etdilər. Azərbaycan dövləti yüz milyard dollardan çox gəlir əldə etdi.

Yəni, bir daha demək istəyirəm ki, bu, dünya təcrübəsində özünə layiqli yer tutan kontraktdır. Çünki həm dövlətin, həm də investorların maraqları təmin olundu. Eyni zamanda, neftdən əldə edilmiş gəlirlər ölkəmizin sürətli inkişafına şərait yaratdı. Biz dünyada neft sənayesində gedən işlərdən xəbərdarıq. Bir çox hallarda neft xoşbəxtlik gətirmir, faciə gətirir, qarşıdurma gətirir, qeyri-bərabərlik gətirir, ədalətsizlik gətirir. Azərbaycanın timsalında neft xeyir gətirib. Çünki neftdən əldə edilmiş gəlirlər ümumi inkişafımıza sərmayə kimi qoyuldu. Sosial məsələlərin həlli üçün şərait yaratdı. Ölkəmizin beynəlxalq mövqelərinin möhkəmləndirilməsi üçün imkan yaratdı. Müasirləşən şəhərlər, abadlaşan kəndlər, ölkədə gedən quruculuq, abadlıq - bütün bunların təməlində bizim neft sənayemiz dayanır.

Biz əlbəttə ki, bu gün iqtisadi sahədə şaxələndirmə yolunu seçmişik. Yəni, neftdən asılılığı aşağı salmağa çalışırıq, qeyri-neft sektorunu inkişaf etdiririk. Ancaq bilməliyik ki, bu gün və sabah ölkəmizin aparıcı sektoru neft-qaz sektorudur. Bu gün və sabah ölkəmizin uğurlu inkişafı üçün bizim qəhrəman neftçilərimizin əməyi əvəzolunmazdır. Məhz bizim neftçilərimiz bu gün Azərbaycanın qüdrətini, inkişafını təmin edirlər. Ona görə neft-qaz sektorunun bundan sonra da uğurla inkişafı prioritet məsələlərdən biridir. Mən yenə də bunu ona görə deyirəm ki, biz iqtisadi inkişafla bağlı apardığımız siyasəti təbii olaraq qeyri-neft sektoru üzərində qururuq. Ancaq bilməliyik ki, əgər neft sektoru inkişaf etməsə, bizim qeyri-neft sektorumuz bu gün ölkəmizin tələbatını ödəyə bilməz.

“Əsrin kontraktı”nın imzalanmasından sonra xarici şirkətlər anladılar ki, Azərbaycana sərmayə qoymaq olar və sərmayə qoymaq lazımdır. Yaxşı xatırlayıram, bir çox xarici şirkət Azərbaycana üz tutub, təkliflərini irəli sürüb və bizimlə əməkdaşlıq etmək haqqında öz niyyətini ifadə etmişdir. Beləliklə, “Əsrin kontraktı”ndan sonra onlarla kontrakt, 40-a yaxın pay bölgüsü sazişi imzalandı. Düzdür, onların bir hissəsinə xitam verildi. Çünki orada kəşfiyyat işlərində lazımi həcmdə neft-qaz resursları tapılmadı. Ancaq digər layihələr bu gün qüvvədədir və bizim qüdrətimizi daha da artırır. Xüsusilə, “Şahdəniz” qaz-kondensat yatağının işlənilməsini qeyd etmək istərdim. “Şahdəniz” üzrə kontrakt “Əsrin kontraktı”ndan iki il sonra - 1996-cı ildə imzalandı. O vaxt dünya enerji aləmində qaz yataqları o qədər də böyük əhəmiyyət kəsb etmirdi. Bu gün təbii qaz enerji təhlükəsizliyi üçün həlledici məsələdir. Ancaq o vaxt belə deyildi. Ona görə “Şahdəniz” üzrə kontraktın imzalanması da tarixi hadisədir. Bu gün “Şahdəniz” “Cənub qaz dəhlizi”nin əsas resurs bazasıdır. “Şahdəniz” qaz-kondensat yatağı dünyanın ən böyük yataqlarından biridir. “Azəri-Çıraq-Günəşli” və “Şahdəniz” yataqları eyni əhəmiyyətə malikdir.

Ondan sonra neft-qaz kəmərləri inşa edilməyə başlanmışdır. Bakı-Novorossiysk kəməri yenidən quruldu. Bakı-Supsa kəməri 1999-cu ildə işə salındı. Bakı-Tbilisi-Ceyhan, - hansı ki, Ulu Öndər Heydər Əliyev özü şəxsən bu kəmərin təməlini qoymuşdu, - 2006-cı ildə biz tərəfdən uğurla başa çatdırıldı. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi və Azərbaycan öz təbii qazını ixrac etməyə başladı. 2012-ci ildə Azərbaycan və Türkiyə arasında TANAP qaz kəməri üzrə saziş imzalanmışdır. “Şahdəniz” yatağının tam miqyasda işlənilməsi üçün bu hadisənin xüsusi yeri vardır. Keçən il biz böyük təntənə ilə həm TANAP-ı, həm “Cənub qaz dəhlizi”ni rəsmi şəkildə açdıq və bu gün TANAP uğurla fəaliyyət göstərir.



Bütün bunlar bizim tariximizdir. Əlbəttə, bu gün bu məclisdə bir çıxışda neft-qaz sənayesi sahəsində görülmüş bütün işləri sadalamaq qeyri-mümkündür. Buna bəlkə də saatlar, günlər lazımdır. Qazma qurğularının Azərbaycanda tikintisi, on minlərlə Azərbaycan vətəndaşının işlə təmin edilməsi, ölkəmizə gələn gəlirlərdən düzgün istiqamətdə istifadə edilməsi, yəni, bütün bunlar bugünkü reallıqlardır.

Bu gün Azərbaycanın uğurlu inkişafı timsalında biz məhz o illərdə atılmış addımların təzahürünü görürük. Görürük ki, Ulu Öndər Heydər Əliyevin bütün başqa xidmətləri ilə bərabər, bu sahədə xalq qarşısında, dövlət qarşısında göstərdiyi xidmətlər ən yüksək qiymətə layiqdir. Biz - onun davamçıları bu sahədə öz işlərimizi davam etdiririk. Bu gün yeni kontraktlar imzalanır, Azərbaycanın neft-qaz sənayesinə böyük maraq var. Azərbaycan beynəlxalq əməkdaşlıq sahəsində, enerji sahəsində böyük uğurlar əldə edib. Mən fürsətdən istifadə edərək bizim strateji tərəfdaşımızın - BP şirkətinin fəaliyyətini qeyd etmək istərdim. Bizim əsas strateji layihələrimizdə BP əsas tərəfdaşımızdır. Həm “Azəri-Çıraq-Günəşli” yatağının, həm “Şahdəniz” yatağının işlənilməsində, TANAP-da və yeni imzalanmış digər kontraktlar əsasında bizim əməkdaşlığımız uzunmüddətlidir, artıq 25 il tarixi var. Bu əməkdaşlıq bundan sonra ən azı 25-30 il davam edəcəkdir.

Bir məsələni də qeyd etmək istəyirəm. “Əsrin kontraktı”nın ölkəmiz üçün, xalqımız üçün çoxşaxəli faydası var. Ancaq onlardan biri də kadr hazırlığıdır. Xatırlayıram, 1994-cü ildə kontraktın üzərində iş aparılarkən xüsusi qeyd edirdik ki, biz istəyirik kontraktda Azərbaycan vətəndaşlarının işə cəlb olunması məsələsi göstərilsin. Biz istəyirdik ki, bu, bir öhdəlik kimi konsorsiumun şirkətləri üzərinə qoyulsun ki, Azərbaycan mütəxəssisləri tədricən bütün əsas vəzifələrdə işləsinlər və belə də oldu. Əlbəttə ki, birinci illərdə xarici mütəxəssislər çoxluq təşkil edirdi. Ancaq xarici şirkətlər və Azərbaycan tərəfindən aparılmış təlim kursları çox güclü kadr potensialı yaratdı. Mənə verilən məlumata görə, bu gün bu təlimlərdən keçmiş mütəxəssislər BP şirkətinin nəinki Azərbaycanda, bir çox ölkələrdə önəmli layihələrində iştirak edirlər, önəmli vəzifələrdə çalışırlar. Bu gün “Azəri-Çıraq-Günəşli” neft yatağının işlənilməsində çalışanların 90 faizdən çoxu Azərbaycan vətəndaşlarıdır, yəni, bunu biz təmin etdik. Bu, çox böyük sərvətdir. Neft, qaz tükənən sərvətlərdir. İntellektual potensial, bilik, savad, səriştə, təcrübə isə dəyişməz sərvətdir. Bu təlimlərdən keçmiş Azərbaycan vətəndaşları, mütəxəssisləri bu gün çox böyük işlər görürlər, ölkəmizin inkişafına böyük töhfə verirlər. Neftdən əldə edilmiş gəlirlər ölkə iqtisadiyyatının inkişafında istifadə olundu. Biz bunu o istiqamətə yönəltdik. İnfrastruktur tamamilə yeniləndi. Yadınıza salın, 1994-cü ildə bizim infrastrukturumuz nə vəziyyətdə idi, bu gün nə vəziyyətdədir. O vaxt hətta Bakı şəhərinin yarısı təbii qaz ala bilmirdi. Rayonlarda, ümumiyyətlə, bundan söhbət gedə bilməzdi. Bu gün Azərbaycanda qazlaşdırma 96 faizdir. Biz ən ucqar dağ kəndlərinə qaz xətləri çəkmişik və bu proses davam etdirilir. Mən Dövlət Neft Şirkətinə tapşırıq vermişəm ki, bu işlər dayanmasın. Düzdür, 96 faiz çox böyük rəqəmdir. Nadir hallarda ölkələrdə bu dərəcədə qazlaşdırma aparılır. Amma biz bunu davam etdirməliyik. O illərdə ölkəmizin yarısı işıqsız qalırdı. Bakı şəhərinin özündə işıq çatışmırdı. Hətta bəzi hallarda saat 12-də televiziya kanalları da fəaliyyətini dayandırırdı ki, vətəndaşlar elektrikdən az istifadə etsinlər. Çünki elektrik çatışmırdı. Artıq 3 min meqavata yaxın yeni generasiya gücləri yaradılıb və biz nəinki özümüzü təmin edirik, ixrac da edirik.

Yollar bərbad vəziyyətdə idi. Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən, bu gün Azərbaycan yolları keyfiyyətinə görə dünya miqyasında 34-cü yerdədir. İçməli su böyük problem idi. Bu gün əhalinin 75 faizi dayanıqlı içməli su ilə təmin edilir və bu proses davam etdirilir.

Məcburi köçkünlər üçün yüzdən çox şəhərcik salındı. Çadır şəhərciklərini biz hələ 2007-ci ildə ləğv etdik. Nəyin hesabına? Neft Fondunun hesabına. Neft Funduna vəsait haradan gəlir? “Əsrin kontraktı”nın icrasından. Biz yüz minlərlə köçkünə yeni evlər verdik, yeni mənzillər təqdim etdik. Şəhid ailələrinə, müharibə veteranlarına edilən güzəştlər, verilən müavinətlər, mənzillər, minik avtomobilləri. Yəni, “Əsrin kontraktı”nın çox böyük faydası var və biz vəsaitdən düzgün istifadə etdik. Neft Fondunun gəlirlərindən yalnız büdcə çərçivəsində istifadə etmək mümkündür. Yəni, Azərbaycan vətəndaşları Milli Məclisdə öz təmsilçiləri vasitəsilə bu vəsaitin bölgüsündə iştirak edirlər.

Sosial infrastruktur tamamilə yenidən quruldu, 3200-dən çox məktəb, 640-dan çox xəstəxana tikildi və təmir olundu, idman qurğuları inşa edildi. Azərbaycan kosmik dövlətə çevrildi. Bizim 3 peykimiz var. Biz gəlirlərdən istifadə edərək dövlət borcumuzu aşağı səviyyədə saxlayırıq. Bu, ümumi daxili məhsulun cəmi 19 faizini təşkil edir. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan beş dəfə artıqdır. Bu, hansı ölkələrdə ola bilər? Var, amma bu ölkələrin sayı o qədər də çox deyil.

“Əsrin kontraktı”nın faydasından çox danışmaq olar. Bundan sonra da neftin satışından əldə ediləcək gəlirlər, ilk növbədə, sosial məsələlərə, infrastruktur layihələrinə, iqtisadiyyatın şaxələndirilməsinə yönəldiləcək ki, Azərbaycanın uzunmüddətli və dayanıqlı inkişafı təmin edilsin.

Mən bu gözəl tarix - “Əsrin kontraktı”nın 25 illiyi və Neftçilər Günü münasibətilə bir daha sizi təbrik etmək istəyirəm. Azərbaycan neftçilərinə yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

❖ ❖ ❖



Sonra ABŞ-ın Azərbaycandakı səfiri **Örl Litzenberqer** Birləşmiş Ştatların Dövlət katibi Maykl Pompeonun məktubunu oxudu. *(Məktub qəzetin bugünkü nömrəsində dərc olunur).*



Böyük Britaniyanın Azərbaycandakı səfiri **Ceyms Şarp** Birləşmiş Krallığın Beynəlxalq Ticarət Departamentinin Beynəlxalq Ticarət üzrə Dövlət katibi Yelizaveta Trussun və Xarici və Birlik məsələləri ofisinin Avropa və Amerika üzrə naziri Kristofer Pinçerin məktubunu oxudu. *(Məktub qəzetin 20 sentyabr nömrəsində dərc olunub).*

❖ ❖ ❖



BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti **Qəri COUNZ** çıxış edərək dedi:

- Zati-aliləri Prezident İlham Əliyev.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Hər il bu tarixdə biz Neftçilər Gününü qeyd edirik. Bu dəfə bu tarix xüsusi əhəmiyyət daşıyır, belə ki, bu gün həm də “Azəri-Çıraq-Günəşli” (AÇG) layihəsinin 25 illiyini qeyd edirik.

İyirmi beş il bundan əvvəl məhz bu tarixdə haqlı olaraq “Əsrin müqaviləsi” adlandırılmış AÇG üzrə hasilatın pay bölgüsü sazişinin imzalanması ölkənin müasir tarixində yeni səhifə açdı. Ümummilli Lider Heydər Əliyevin sözləri ilə desək: “Əsrin müqaviləsi”nin imzalanması müstəqil Azərbaycanın yeni neft strategiyası və doktrinasının başlanğıcıdır”.

Bu gün biz mərhum Prezident Heydər Əliyevin uzaqgörən siyasətinə əsaslanan strategiyanın möhtəşəm nəticələrinin şahidiyik. “Əsrin müqaviləsi”nin ölkədə misli görünməmiş bir iqtisadi inkişafa yol açması və Azərbaycanı müasir enerji mərkəzinə çevirməsi göz qabağındadır.

Biz AÇG-ni bir öncül hesab edirik. Azərbaycanın dəniz sektoru üzrə imzaladığı ilk hasilatın pay bölgüsü sazişi AÇG yatağı üzrə bağlanıb. AÇG qərb transmilli şirkətlərinin bu vaxtadək keçmiş Sovet İttifaqı ölkələrinə qoyduğu ilk iri investisiyanı ölkəyə gətirib.

Nəhəng və mürəkkəb layihə olan AÇG çərçivəsində dəniz hasilat platformalarını, sualtı boru kəmərlərini, qazma qurğularını, emal terminallarını və ixrac boru kəmərlərini özündə birləşdirən dünya səviyyəli enerji infrastrukturu inşa edilib.

Bu illər ərzində 3,6 milyard bareldən çox neft hasil edilib, 44 milyard kubmetr səmt qazı Azərbaycana çatdırılıb, 3,3 milyard barel neft Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə nəql edilib, 4300 tankerə yüklənib və dünya bazarlarına göndərilib, 36 milyard ABŞ dolları həcmində kapital investisiya qoyulub, 84 milyon ABŞ dolları həcmində vəsait davamlı inkişaf layihələrinə xərclənib.

Bütün bunlar müstəsna nailiyyətlərdir və biz hamımız bununla qürur duymalıyıq.

Fikrimcə, bu uğur üç aparıcı amilə arxalanır.

Birinci və ən önəmli aparıcı qüvvə, AÇG-nin Azərbaycan üçün əsl milli sərvətə çevrilməsinə töhfə vermiş neftçilərdir.

Tarixən Azərbaycanda görkəmli neft mütəxəssisləri yetişib və illərlə yığılmış bu təcrübəni AÇG layihəsində iştirak edən yeni nəsil yüksək səriştəli yerli neft mütəxəssisləri uğurla davam etdirirlər.

Mən xüsusilə qürur duyuram ki, ixtisaslaşmış kadrlarımızın 90 faizi Azərbaycan vətəndaşlarıdır. Sevindirici haldır ki,- cənab Prezident də bunu qeyd etdi,- onların bir çoxu hazırda BP-nin dünyanın müxtəlif ölkələrindəki ofislərində rəhbər vəzifələrdə işləyir.

İkinci amil, onilliklər ərzində birgə səylərlə ərsəyə gətirdiyimiz dünya səviyyəli bu layihənin uğurla həyata keçirilməsinə imkan yaratmış çoxsaylı tərəflərin nümayiş etdirdiyi əməkdaşlıq və strateji tərəfdaşlıqdır.

AÇG üzrə hasilatın pay bölgüsü sazişi Azərbaycanda AÇG tərəfdaşlarının investisiyaları üçün hüquqi sabitlik və etibarlı müdafiə təmin edən nadir birgə iş mexanizmi formalaşdırıb.

Bütün tərəflərin, xüsusilə də Azərbaycan hökumətinin göstərdiyi etimad və sarsılmaz inam olmasaydı, bu uğurlar, çətin ki, mümkün olardı. Məhz həmin inam və əməkdaşlıq ruhu bizdə AÇG-nin nailiyyətlərini əl-ələ verərək birlikdə qazanmağa imkan yaradıb.

Ötən 25 il ərzində bizim Azərbaycan hökuməti və SOCAR ilə tərəfdaşlığımız yüksək səviyyədə olub. AÇG-nin bütün tərəfdaşları adından bu layihənin uğurunu təmin edən qətiyyətli dəstəyə və öhdəliyə görə Prezident İlham Əliyevə və Azərbaycan hökumətinə dərin minnətdarlığımı bildirirəm.

Üçüncü amil isə AÇG yatağının işlənməsində və istismarında tətbiq edilən texnologiyalardır.

Sənayedəki ən qabaqcıl texnologiyaların istifadəsi və yerli innovativ həllərin tətbiqi AÇG-ni təhlükəsiz və səmərəli şəkildə həyata keçirməyə, hasilatı maksimuma çatdırmağa və texniki çətinliklərin öhdəsindən gəlməyə imkan verdi. Bundan əlavə, hazırda AÇG BP-nin dünyadakı aktivləri arasında texnologiyaların sınağı və tətbiqi baxımından əsas mərkəz hesab edilir.

AÇG-nin 25 illik tarixi möhtəşəm olmuşdur və biz inanırıq ki, onun gələcəyi də eyni dərəcədə uğurlu olacaq.

İki il bundan əvvəl məhz bu ayda imzalanmış, “Yeni əsrin müqaviləsi” adlandırılan, müddəti uzadılmış AÇG üzrə hasilatın pay bölgüsü sazişi eyni uğurlu gələcək üçün güclü zəmin yaradır.

Növbəti 30 il ərzində biz yeni sərmayələr yatırmaqla, yeni texnologiyalar tətbiq etməklə və hasilatın artırılması istiqamətində yeni birgə səylər göstərməklə AÇG-nin uzunmüddətli işlənmə potensialının reallaşdırılması üçün birgə işimizi davam etdirəcəyik.

Yekunda isə bir çox hallarda mürəkkəb iş mühitində işləyərək öz enerjisi, səriştəsi və əməyi ilə AÇG-nin uğurla gerçəkləşdirilməsinə töhfə vermiş hər kəsə təşəkkürümü bildirmək istəyirəm. Məhz sizin səyləriniz, fədakarlığınız və əzminiz sayəsində Azərbaycanın neft və qaz tarixinə qızıl hərflərlə yazılmış bu əlamətdar tarixi qeyd edirik. Təşəkkür edirəm.

❖ ❖ ❖



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti **Xoşbəxt YUSİFZADƏ** çıxış edərək dedi:

- Hörmətli xanımlar və cənablar.

Sizin hamınızı, ümumiyyətlə, Azərbaycan xalqını bu bayram münasibətilə təbrik edirəm. Çünki bu, təkcə neftçilərin bayramı deyil. Neftçilərin əldə etdiyi nailiyyətlər, ümumiyyətlə, Azərbaycan xalqının əldə etdiyi nailiyyətlərdir. Ona görə də bu bayram, doğrudan da, gözəl bayramdır.

“Əsrin müqaviləsi”nin iyirmi beş illiyi tamam olur. Bu, sanki 100 ilə bərabər bir vaxtdır. Mən yaşca böyük olduğum üçün istəyirəm Dövlət Neft Şirkətinin bütün kollektivi adından hörmətli Prezidentimiz cənab İlham Əliyevə “Çox sağ olun!” deyim ki, bizim nə qədər işçilərimizi mükafatlandırıb. Bu mükafatları verdiyiniz üçün, cənab Prezident, mən neftçilər adından Sizə təşəkkürümü bildirirəm. Hesab edirəm ki, Sizin bizə məhəbbətinizin nəticəsidir ki, bütün bayramlarda, bütün əlamətdar günlərdə Siz neftçiləri yaddan çıxarmırsınız. Ona görə də Sizə “Çox sağ olun!” deyirəm. Ömrünüz uzun olsun.

Cənab Prezident elə ətraflı danışdı ki, mən bilmirəm nədən danışım. “Əsrin müqaviləsi” birinci gündən gözümün qabağından bir lent kimi gəlib keçir. Mən də gördüklərimdən bir-iki cümlə deyim. Məsələ ondadır ki, bəzən fikirləşirsən ki, “Əsrin müqaviləsi”dir, qol çəkildi, hər şey hamar getdi. Amma mənim gözümün qabağındadır ki, nə qədər əziyyətlər çəkilib. Əsas da bu əziyyəti çəkən, əsas bu işin başında duran hörmətli cənab Prezidentimiz Heydər Əliyev olub. Bu müqavilənin imzalanmasına hamını məhz Heydər Əliyev inandıra bildi. Çünki Heydər Əliyevin nəinki Azərbaycanda, bütün dünyada böyük hörməti var idi. Həm də böyük qətiyyəti var idi. Respublika rəhbərliyinə ikinci dəfə gələndə biz neftçiləri yığdı, neft sənayesi ilə maraqlandı, vəziyyəti aydınlaşdırdı. Belə qərara gəlindi ki, biz hökmən xarici şirkətlərlə bir yerdə işləməliyik. O vaxt aramızda bir çox adamlar var idi, deyirdilər ki, biz özümüz işləyərik. Amma bizim özümüzün işləməyimiz üçün 30-40 il vaxt lazım idi. Cənab Heydər Əliyev vəziyyəti aydınlaşdırandan sonra belə qərara gəldi ki, biz mütləq xarici şirkətləri dəvət etməliyik. Özü də xarici şirkətləri dəvət etməkdə qeyri-adi heç nə yox idi. Bütün böyük dövlətlərin heç biri dənizdə tək işləmir. Çünki bu, çox baha başa gəlir. Ona görə də burada elə qorxulu bir şey yox idi. Buna nail olduq. Danışıqlar başlandı, əvvəlcə Bakıda, ardınca İstanbulda. Sonra biz cənab İlham Əliyevlə birlikdə Hyustona getdik.

*Ardı 3-cü səh.*

# Neftimiz müstəqil Azərbaycan dövlətinə xidmət göstərir

## "Əsrin müqaviləsi"nin faydasını xalqımız görür

*Əvvəli 2-ci səh.*

Orada 45 gün danışıqlar aparıldı. İndi bir cümlə ilə deyilir ki, danışıqlar aparıldı. Amma bilirsiniz də o danışıqlar necə gedirdi. Danışıqlarda bizim o qədər təcrübəmiz yox idi. Amma bizə bütün bu şəraiti yaradan, bütün bu işləri qabağa aparan hörmətli cənab İlham Əliyev oldu. Çünki o, Moskvada Beynəlxalq Münasibətlər İnstitutunu bitirmişdi, dilləri bilirdi. Onları öz dillərində başa salırdı ki, bizim məqsədimiz nədir. Danışıqlar müsbət nəticələndi. Qayıdıb gəldik və sentyabrın 20-də bu müqavilə imzalandı. O çətin vəziyyətdə 7 ölkənin 11 şirkəti bu müqaviləyə imza atdı. Müqavilənin əhəmiyyəti barədə mən də qısaca olaraq bir-iki kəlmə demək istərdim. Siyasi əhəmiyyətinə gəldikdə, bütün dövlətlər, bütün şirkətlər inandılar ki, Azərbaycan sabit ölkədir, burada işləmək olar. Heç təsadüfi deyil ki, ondan sonra 35 müqavilə imzalandı. İkincisi, iqtisadi əhəmiyyətinə gəldikdə, 1997-ci ildə bizim respublikada neft hasilatının səviyyəsi 9 milyon tona düşmüşdü. Bu müqavilənin nəticəsində 2010-cu ildə 11 milyon ton neft hasil olundu. "Azəri-Çıraq-Günəşli"də ötən müddətdə 492 milyon ton neft hasil olunub ki, onun 287 milyon tonu Azərbaycanın mənfəət neftidir. Bu da təxminən 58 faiz təşkil edir. Amma ildən-ilə mənfəət neftinin miqdarı artır. Çünki əvvəllər başqa xərclər də var idi. Elə bu ilin 8 ayını götürsək, "Azəri-Çıraq-Günəşli"dən 18 milyon neft hasil olunub ki, onun 13 milyon tonu Azərbaycanın mənfəət neftidir. Bu isə 73 faiz təşkil edir. Demək istəyirəm ki, Azərbaycanın mənfəət neftinin həcmi ildən-ilə artır. Müqavilənin 30 illik müddəti başa çatırdı, bir yol tapmaq lazım idi. Cənab İlham Əliyevin rəhbərliyi ilə düzgün yol seçildi. Yatağın işlənməsində böyük təcrübəsi olan BP və tərəfdaşları ilə müqavilənin müddətinin 2050-ci ilə qədər uzadılması çox gözəl nəticə oldu. Orada da bizim yaxşı rəqəmlər qalır. Bizim 75 faiz mənfəət neftimiz qalır, 3,6 milyard bonus gəlir. 40 milyard xərcləyiblər, 40 milyard da xərclənəcək. Yenə 500 milyon ton neft hasil ediləcək. Öz tərəfdaşları ilə burada qalan BP, "Azəri-Çıraq-Günəşli"dən başqa digər strukturlarda da iş aparır, fəaliyyətini genişləndirir. Odur ki, Azərbaycan neftinin gələcəyi üçün bunun böyük əhəmiyyəti oldu.

Bir-iki kəlmə də Bakı-Tbilisi-Ceyhan haqqında danışım. Bakı-Tbilisi-Ceyhan da Heydər Əliyev cənablarının uzaqgörənliyini göstərir. O vaxt Ulu Öndər bildi ki, Azərbaycan neftini Bakı-Supsa, Bakı-Novorossiysk kəmərləri ilə



xaricə çıxara bilməyəcək. Onda Bakı-Tbilisi-Ceyhan məsələsi ortaya çıxdı. Bu, həm də iqtisadi cəhətdən çox səmərəli idi. Çünki bu kəmər Qara dənizdən yan keçməklə Aralıq dənizinə çıxırdı. Qısaca deyim ki, əgər bugünədək xarici bazarlara 554 milyon ton Azərbaycan nefti çıxarılıbsa, onun təxminən 400 milyon tonu Bakı-Tbilisi-Ceyhanın payına düşür. İndi təsəvvür edin ki, bu kəmər olmasaydı, bu qədər neft xaricə necə çıxacaqdı? Ümumiyyətlə, həyat belədir ki, nə yaxşı iş görürsən gör, bir nəfər tapılıb deyir ki, bu, elə deyil, belədir. Amma həyat sonradan bu məsələlərin düzgünlüyünü göstərdi. İndi buna heç kim heç nə deyə bilməz. Demək olar ki, əgər "Əsrin müqaviləsi" cənab Heydər Əliyevin birinci şah əsəri idisə, Bakı-Tbilisi-Ceyhan ikinci şah əsəridir. Üçüncü şah əsəri də "Şahdəniz"dir. Bunların hamısını cənab Heydər Əliyev başladı. Bunların əsasını qoydu, yaratdı, dünyaya çatdırdı. Cənab İlham Əliyev də bu gün bunların hamısını davam etdirir. İndi əldə etdiyimiz nailiyyətləri danışmaqla qurtarmaq olmaz. Çünki bu 25 ildə çox böyük işlər görülüb. Mən də bir məqalə yazmışam, "100 ilə bərabər olan 25 il". Cənab İlham Əliyev, Mehriban xanım rayonlara gedəndə görürük ki, nə qədər məktəblər, idman mərkəzləri tikilib, yollar çəkilib. Azərbaycanda 5-10 il olmayan adamlar gələndə ölkəmizin inkişafına heyran qalırlar, çox böyük dəyişikliklər baş verib.

Mən çox danışmaq istəmirəm. Allah Heydər Əliyevə rəhmət eləsin. Allah cənab İlham Əliyevə ailəsi ilə birlikdə uzun ömür versin. Azərbaycanın neftçiləri də öz qarşılarında vəzifə qoyurlar ki, ölkəmiz həmişə birinci yerdə olsun. İndi qeyri-neft sektoru inkişaf edir. Bu, çox yaxşı haldır. Amma biz neft sənayesinin işçiləri də gərək elə edək ki, geridə qalmayaq. Əvvəlcədən necə işləmişik, elə də işləyək. Çünki hələ uzun illər bizə neft, qaz lazım olacaq. Odur ki, mən sizin hamınızı bir daha təbrik edirəm. Cənab İlham Əliyevə, onun ailəsinə uzun ömür arzu edirəm ki, respublikanın bayrağını yüksəyə qaldırıb dünyaya tanıdıblar. Elə bu cür də davam etsinlər.

Diqqətinizə görə çox sağ olun.

❖ ❖ ❖

Sonda BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz Prezident İlham Əliyevə "Əsrin müqaviləsi"nin 25 illiyi münasibətilə "Azəri-Çıraq-Günəşli" yatağını simvolizə edən markaların toplusunu hədiyyə etdi.

## N.Q.Cəfərovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına və elmin inkişafında xidmətlərinə görə Nizami Qulu oğlu Cəfərov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 sentyabr 2019-cu il*

## "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 87-ci kitabı çapdan çıxıb




Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2018-ci ilin may-iyun aylarını əhatə edir.

Kitabda Prezident İlham Əliyevin Əskişəhərdə TANAP-Trans-Anadolu qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasimdə iştirakına, Rusiyaya işgüzar səfəri, habelə Serbiya Prezidentinin Azərbaycana rəsmi səfəri zamanı apardığı danışıqlara, imzalanan sənədlərə dair informasiyalar toplanıb.

Nəşrdə Azərbaycan Prezidentinin Niderland, Fransa, Böyük Britaniya, ABŞ, İran və digər dövlətlərin, Beynəlxalq Əmək Təşkilatı, Beynəlxalq Mülki Müdafiə Təşkilatı və digər nüfuzlu qurumların ölkəmizə gəlmiş yüksəkvəzifəli şəxslərini qəbul etməsi haqqında materiallar da yer alıb.

Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet kimi qaldırılıb.

Çoxcildliyin 87-ci kitabına dövlət başçısının Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi münasibətilə təşkil olunmuş qəbulda, Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə keçirilən təntənəli hərbi paradda, Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin rəsmi açılış mərasimində və digər mühüm tədbirlərdə nitq və çıxışlarının mətnləri toplanıb.

Oxucu bu nəşrdə Azərbaycan Prezidentinin "Heydər Əliyev: şəxsiyyət, missiya, irs" tarixi sənədli sərginin, "Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr" beynəlxalq konfransının iştirakçılarına məktubları və digər rəsmi sənədlər ilə tanış ola bilər.

Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına, Goranboy rayonuna, Naftalan şəhərinə səfərlərinə, bölgələrdə iqtisadi, sosial, mədəniyyət obyektlərinin açılışlarında iştirakına, ictimaiyyət nümayəndələri ilə görüşlərinə dair materiallar da bu kitaba daxil edilib.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 87-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ən böyük ədalətsizlikdir. Bu işğal nəticəsində bizim vətəndaşlarımız məcburi köçkün həyatı yaşayırlar. Bütün beynəlxalq hüquq normalarını pozan Ermənistan vəhşilik törədib. Erməni faşizminin yırtıcı sifəti bu münaqişənin nəticələrində özünü büruzə verib. Ancaq Azərbaycan xalqı tam əmindir ki, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik, bunu etməliyik. Həm beynəlxalq hüquq, həm də haqq-ədalət bizim tərəfimizdədir. Tarixi həqiqət bizim tərəfimizdədir və güc bizim tərəfimizdədir. Bu gün dünya miqyasında güc amili ön plana çıxır və güclü ölkələr öz istəyinə nail ola bilirlər. Azərbaycan da güclü ölkədir. Güclü ordumuz, güclü iqtisadiyyatımız və düşünülmüş siyasətimiz vardır.

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 87-ci kitabında yer alan bu fikirlər 2018-ci il mayın 24-də Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park" yaşayış kompleksinin açılış mərasimində dövlət başçısının çıxışından götürülüb.

## *Baş Nazir Novruz MƏMMƏDOV:* "Əsrin müqaviləsi" dövlət müstəqilliyimizin mühüm təminatına çevrildi








Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov "Əsrin müqaviləsi"nin 25 illiyi ilə əlaqədar "Twitter" səhifəsində paylaşım edib.

AZƏRTAC xəbər verir ki, Baş Nazirin paylaşımında deyilir: "Əsrin müqaviləsi" müstəqilliyini yenicə qazanan gənc Azərbaycan dövlətinin Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə dövlətçiliyimizin əbədiliyinə, sabitliyinə, respublikamızın davamlı inkişafına, beynəlxalq əməkdaşlığa, qlobal və regional təhlükəsizliyə verdiyi böyük töhfə və zəmanətdir.

İyirmi beş il əvvəl müstəqil Azərbaycan Respublikası ilə dünyanın tanınmış neft şirkətləri arasında imzalanmış müqavilə məhz öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adını alıb.

Bu tarixi hadisənin baş tutmasında Ulu Öndər Heydər Əliyevin siyasi-diplomatik peşəkarlığı, böyük rəhbər və insan kimi güclü iradəsi həlledici rol oynadı. O, müstəqil Azərbaycanın strateji əməkdaşlığa hazır olduğuna dünyanı inandıra bildi. Eyni zamanda bu strateji əməkdaşlığın imkanlarından yararlanaraq ölkə iqtisadiyyatının gələcək inkişafını təmin etmək üçün gənc ölkəmizə böyük imkanlar qazandırdı. Bu müqavilə ilə müstəqil dövlətimizin neft strategiyasının əsası qoyuldu.

Hesab edirəm ki, bu qlobal layihə Azərbaycanın suveren dövlət kimi öz təbii sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını müdafiə etmək əzmini bir daha bütün dünyaya göstərdi, dövlət müstəqilliyimizin mühüm təminatına çevrildi. Müqavilənin təşəbbüskarı olan müstəqil Azərbaycan beynəlxalq əməkdaşlıq və regional təhlükəsizliyə də öz töhfəsini vermiş oldu.

İyirmi beş illik uğurlu əməkdaşlıq bir daha onu göstərdi ki, 100 il əvvəl Şərqdə ilk demokratik cümhuriyyəti quran, qadınlara ilk dəfə səsvermə hüququ verən, təkrarolunmaz mədəniyyət nümunələri yaradan Azərbaycan xalqı etibarlı tərəfdaşdır və qlobal əhəmiyyətli bu layihənin tərəfdaşlarla birgə icrasını davam etdirmək zəruridir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzaqgörən siyasəti sayəsində ölkəmizə misilsiz uğur qazandıran bu müqavilənin müddəti XXI əsrin ortalarına qədər uzadıldı.

"Əsrin müqaviləsi"nin imzalanmasından ötən 25 ildə Azərbaycan Respublikası və onun neft-qaz sənayesi əsrə bərabər bir inkişaf yolu keçib. Əminəm ki, müstəqil ölkəmiz bu yolda şərəflə addımlamağa davam edəcək".

## Tarixi İpək Yolunun bərpası Azərbaycan üçün hər zaman aktualdır

Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov sentyabrın 20-də Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Çin Xalq Respublikasının yaranmasının 70 illiyi münasibətilə təbriklərini çatdıran Baş Nazir Novruz Məmmədov Azərbaycanın Çin ilə əməkdaşlıqda maraqlı olduğunu bildirərək deyib: "Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Çin ilə əlaqələrimizin inkişafı istiqamətində önəmli addımlar atıb. Bu gün ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələri dinamik inkişaf edir".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çinə beş dəfə səfər etdiyini xatırladan Novruz Məmmədov bildirib ki, bu səfərlər çərçivəsində Çin Xalq Respublikasının Sədri Si Cinpin və digər rəsmi şəxslərlə səmərəli görüşlər keçirilib, ikitərəfli əlaqələrlə bağlı müzakirələr aparılıb. "Hesab edirəm ki, son vaxtlar ölkələrimiz arasındakı əməkdaşlıq əlaqələri daha dinamik şəkildə inkişaf etdirilir. Sədr Si Cinpinin təşəbbüsü ilə irəli sürülən "Bir kəmər, bir yol" layihəsi ölkəmiz üçün çox cəlbedicidir. Tarixi İpək Yolunun bərpası Azərbaycan üçün hər zaman aktualdır. Biz hesab edirik ki, bu yol tarixən Azərbaycan və Çin xalqlarını birləşdirən yol olub. Əminəm ki, "Bir kəmər, bir yol" layihəsi də uğurla icra olunacaq. Azərbaycan "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyir və bu istiqamətdə müəyyən addımlar atır", - deyə Novruz Məmmədov vurğulayıb.

Azərbaycanın Baş Naziri ölkəmizin təşəbbüsü ilə reallaşdırılan irimiqyaslı layihələr barədə məlumat verərək strateji əhəmiyyətli layihə hesab olunan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin, həmçinin Bakı Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verildiyini qeyd edib. Novruz Məmmədov Azərbaycan ilə Çin arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün geniş potensialın olduğunu diqqətə çatdırıb.

Baş Nazir Azərbaycanın Çin ilə iqtisadi əlaqələrin genişləndirilməsinə xüsusi önəm verdiyini bildirərək deyib ki, sənaye, kənd təsərrüfatı, energetika, turizm və digər sahələrdə əməkdaşlığı daha da gücləndirmək üçün yaxşı imkanlar mövcuddur.

Novruz Məmmədov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində ölkəmizin ədalətli mövqeyinə verdiyi dəstəyə görə Çin Xalq Respublikasına minnətdarlığını ifadə edib. Azərbaycanın da "Vahid Çin" prinsipinə hər zaman dəstək verdiyini söyləyib.

Ölkələrimiz arasında əməkdaşlığın davamlı şəkildə inkişaf etdiyini bildirən Li Canşu Çinin Azərbaycan ilə əlaqələrin bütün sahələrdə genişlənməsinə böyük əhəmiyyət verdiyini ifadə edib. "Bu gün Azərbaycan ilə Çin arasında mövcud olan əməkdaşlıq əlaqələri belə deməyə əsas verir ki, biz dost ölkələr kimi daim bir-birimizə etibar edə bilərik".

Li Canşu son illər Çin ilə Azərbaycan arasındakı münasibətlərin daha da intensiv xarakter aldığını qeyd edərək qarşılıqlı səfərlərin, aparılan danışıqların əlaqələrimizin inkişafına xidmət etdiyini deyib.

Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Azərbaycanın tranzit ölkə kimi beynəlxalq yükdaşımaların həyata keçirilməsində etibarlı tərəfdaş olduğunu vurğulayıb, bu sahədə əməkdaşlığın inkişafının zəruriliyini diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

## Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin nümayəndə heyəti İçərişəhərlə tanış olub

Azərbaycanda səfərdə olan Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşunun başçılıq etdiyi nümayəndə heyəti sentyabrın 20-də İçərişəhərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Qız qalasından başlanan tanışlıq zamanı qonağa Bakının rəmzlərindən biri sayılan abidənin tarixi barədə məlumat verilib. Bildirilib ki, eramızdan əvvəl VII-VI əsrlərdə əsası qoyulmuş Qız qalası XII əsrdə bərpa edilib. Hündürlüyü 28 metr, diametri 16-16,5 metr olan abidə silindr formalı əsl qaladan və cənub tərəfdən ona bitişən iri dayaq tikilidən ibarətdir. Dünya əhəmiyyətli bu abidənin qorunub saxlanması və mövcud görkəmdə gələcək nəsillərə çatdırılması üçün Prezident İlham Əliyevin tapşırıqları əsasında 2009-2013-cü illərdə burada konservasiya işləri aparılıb. Qız qalasının yaxınlığındakı Sırataǧlı dini-memarlıq kompleksinin ərazisindəki daş ekspozisiyanın yenidən təşkili işləri qonağın böyük marağına səbəb olub.

Gəzinti zamanı nümayəndə heyətinin üzvlərinə UNESKO-nun Dünya Mədəni İrsi Siyahısına daxil edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, burada aparılan abadlaşdırma və bərpa işləri barədə məlumat verilib. Qeyd edilib ki, İçərişəhər ərazisində müxtəlif əsrlərə aid nadir tarixi memarlıq abidələri var və bunlar dövlət tərəfindən qorunur.

Qonaqlar təzə bişmiş təndir çörəyinin dadına baxmış və elektromobillərlə İçərişəhərlə tanışlığı davam ediblər.

Daha sonra onlar orta əsr Şərq memarlığının şah əsəri, dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi olan Şirvanşahlar sarayı kompleksi ilə tanış olublar.

Məlumat verilib ki, XV əsrin əvvəllərində inşa olunmuş tarixi abidənin tikililəri İçərişəhərin təpələrindən birinin ən hündür nöqtəsində yerləşir. Abidə Xəzər dənizindən və şəhərin ətrafındakı yüksəkliklərdən aydın görünür. Kompleks bugünədək öz tarixi-memarlıq üstünlüyünü saxlamaqdadır.

İçərişəhərlə tanışlıq Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin nümayəndə heyətində zəngin təəssürat yaradıb.

# 2020-ci il Azərbaycanın sosial-iqtisadi inkişafında mühüm mərhələ olacaq

## Gələn ilin dövlət büdcəsi layihəsində gəlir və xərclərin artımı bunu deməyə əsas verir

*Əvvəli 1-ci səh.*

Büdcə həm də iqtisadi-sosial inkişaf proseslərini tənzimləyən maliyyə vasitəsidir. 2020-ci ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair açıqlamadan da aydın olur ki, sənədlər ölkəmizin reallıqlarına uyğun və gələn ilin çağırışları nəzərə alınaraq hazırlanıb.

### Qeyri-neft gəlirləri artır

2020-ci ildə dövlət büdcəsinin gəlirləri 24 milyard 484 milyon manat məbləğində proqnozlaşdırılır. Bu da 2019-cu ilin təsdiq edilmiş göstəricisi ilə müqayisədə 1 milyard 316 milyon manat və ya 5,7 faiz çoxdur. Büdcə gəlirlərinin tərkibində qeyri-neft gəlirləri (10 milyard 536,5 milyon manat) 43 faiz, neft gəlirləri (13 milyard 947,5 milyon manat, o cümlədən Dövlət Neft Fondundan transfert 11 milyard 767,5 milyon manat) isə 57 faiz təşkil edəcək.

2020-ci il üzrə dövlət büdcəsinin tərkibində gözlənilən qeyri-neft gəlirləri cari ilə nisbətən 1 milyard 68,8 milyon manat və ya 11,3 faiz çoxdur. Bu, kifayət qədər böyük rəqəmdir və Azərbaycanda qeyri-neft sektorunun inkişafının əyani göstəricisidir. Neft Fondundan transfert təxminən 403 milyon manat artacaq. Göründüyü kimi, gələn ilki büdcədə qeyri-neft gəlirlərinin payındakı artım Dövlət Neft Fondundan artan transfertlərdən 2,5 dəfə çoxdur.

Qlobal enerji qiymətlərinin volatilliyi fonunda iqtisadiyyatın neft sektorundan asılılığın azaldılması hədəflərinə uyğun olaraq, büdcənin qeyri-neft gəlirlərinin artırılması növbəti ildə də gəlir siyasətinin əsas istiqamətlərindən biri olacaq. Xatırladaq ki, 2020-ci il üçün icmal və dövlət büdcəsinin gəlirləri hesablanarkən neftin bir barelinin qiyməti 55 ABŞ dollarına bərabər götürülüb.

2020-ci ildə icmal büdcə gəlirləri isə 27 milyard 605,3 milyon manat məbləğində proqnozlaşdırılır.

### Sosial xərclər 2 milyard 664,2 milyon manat artırılır

2020-ci ildə dövlət büdcəsinin xərcləri 25 milyard 617,7 milyon manat məbləğində proqnozlaşdırılır. Bu da 2019-cu ilin təsdiq edilmiş göstəricisi ilə müqayisədə 427,7 milyon manat çoxdur. Xərclərlə bağlı diqqəti çəkən əsas məqam sosialyönlü xərclərin çəkisinin 2019-cu illə müqayisədə 9,9 faiz artırılmasıdır. Beləliklə, gələn ilin büdcə xərclərinin tərkibində sosialyönlü xərclərin xüsusi çəkisi 40,7 faiz təşkil edəcəkdir ki, bu da 2019-cu illə müqayisədə 2 milyard 664,2 milyon manat çoxdur.

Qeyd edək ki, Prezidentin sərəncamları ilə minimum əməkhaqqının, bir sıra sosial müavinətlərin və təqaüdlərin, dövlət qulluqçularının, hüquq mühafizə orqanları əməkdaşlarının, müəllimlərin, büdcədən maliyyələşən bir sıra digər təşkilatlarda çalışanların əməkhaqlarının artırılması, habelə əmək pensiyasının minimum məbləğinin artırılması haqqında qanunvericiliyə edilən dəyişikliklər sosialyönlü xərclərin artımını şərtləndirib. Ona görə 2020-ci ildə əməyin ödənişi üzrə xərclər 6 milyard 723,4 milyon manat, təqaüdlər və sosial müavinətlər üzrə xərclər 3 milyard 213,4 milyon manat (o cümlədən Dövlət Sosial Müdafiə Fonduna transfert 1 milyard 426,9 milyon manat) təşkil edəcək.

Beləliklə, ənənəvi olaraq büdcənin sosialyönümlülüyü növbəti ildə də təmin olunacaq. Bu əsasda əməyin ödənişi, təqaüdlər və sosial müavinətlər, o cümlədən əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin möhkəmləndirilməsi üzrə maliyyə təminatının yaradılması prioritet xərc istiqamətlərindən olacaq.

Ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin təmin edilməsi, xüsusi müdafiə xarakterli layihələr və tədbirlər üçün maliyyə təminatının yaradılması 2020-ci il və orta müddətli dövrdə də davam etdiriləcək.

Eyni zamanda insan kapitalının inkişafı, əmək məhsuldarlığının artırılması, kompetensiyalı işçi qüvvəsinin yaradılması üzrə tədbirlər büdcə siyasətinin əsas istiqamətlərindən biri olaraq qalacaq. Bu əsasda təhsil islahatlarının davam etdirilməsi, məktəbəqədər təhsilin maliyyə təminatı, habelə ali məktəblərə dövlət sifarişi əsasında tələbə qəbulunun daha da genişləndirilməsi məqsədilə müvafiq maliyyə təminatı ayrılacaq.

Xərc siyasətinin digər mühüm istiqaməti ərzaq təhlükəsizliyinin təmin edilməsi olacaq. Bununla əlaqədar, aqrar sektorun stimullaşdırılması, kənd təsərrüfatının aparıcı sahələrinin inkişaf etdirilməsi üçün müvafiq təşviq mexanizmləri formalaşdırılacaq, maliyyə dəstəyi və subsidiyalar ayrılacaq.

2020-ci ilin xərc siyasətinin əsas istiqamətlərindən biri səhiyyə sahəsində islahatların dəstəklənməsi olacaqdır. Belə ki, 2020-ci ildən başlayaraq ilk dəfə olaraq bütün ölkə ərazisində icbari tibbi sığortanın tətbiqi planlaşdırılır ki, bu məqsədlə dövlət büdcəsində əhəmiyyətli maliyyə vəsaiti nəzərdə tutulur.

Bunlarla yanaşı, gələn il nəqliyyat, kommunal infrastruktur, meliorasiya, sənaye və energetika, kənd təsərrüfatı kimi prioritet sahələrdə infrastruktur layihələrinin dəstəklənməsi, habelə təhsil, səhiyyə, idman, mədəniyyət obyektlərinin, əlil və şəhid ailələri üçün evlərin tikintisi dövlət əsaslı vəsait qoyuluşunun prioritet istiqamətlərindən olacaq. Dövlət Neft Fondunun vəsaiti hesabına məcburi köçkünlər üçün yaşayış evlərinin tikintisi proqramı davam etdiriləcək.

2020-ci il üzrə icmal büdcə xərclərinin yuxarı həddi büdcə qaydasına uyğun olaraq 28 milyard 192 milyon manat səviyyəsində proqnozlaşdırılır ki, bu da 2019-cu ilin təsdiq edilmiş göstəricisi ilə müqayisədə 821,1 milyon manat və ya 3 faiz çoxdur.

2020-ci ildə dövlət büdcəsinin kəsirinin 1 milyard 133,7 milyon manat olması proqnozlaşdırılır ki, bu da cari ilin göstəricisindən 888,3 milyon manat və ya 43,9 faiz azdır. Ənənəvi olaraq kəsirin maliyyələşdirilməsi xaricdən cəlb edilən kreditlər, daxili borclanma, o cümlədən qiymətli kağızların buraxılışı, özəlləşdirmədən daxilolmalar və vahid xəzinə hesabının qalığı hesabına aparılacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "Washington Examiner" jurnalında "Əsrin müqaviləsi"nin 25 illiyinə həsr olunmuş məqalə dərc edilib

Amerikanın "Washington Examiner" jurnalında siyasi icmalçı Covanni Visente Romeronun "Əsrin müqaviləsi"nin imzalanmasının 25 illiyinə həsr olunmuş məqaləsi dərc edilib.

AZƏRTAC xəbər verir ki, Romero öz məqaləsinin əvvəlində ötən həftə pilotsuz dronların Səudiyyə Ərəbistanındakı neft emalı zavodlarına hücumlarının qlobal təhlükəsizlik, siyasət və iqtisadiyyat arasında kövrək bağ olduğunu göstərdiyini xatırladıb. O qeyd edib ki, böyük dövlətlərin ekspansionist və asimmetrik hərəkətləri ilə müşayiət olunan rəqabət dövründə enerji ehtiyatları ilə zəngin olan Cənubi Qafqazda vəziyyəti səmərəli şəkildə dəyişəcək beynəlxalq müqavilələrin vacibliyini vurğulamaq lazımdır. Sentyabrın 20-də Azərbaycanla yeddi ölkəni təmsil edən 11 beynəlxalq neft şirkəti arasında mühüm kontraktın imzalanmasının 25 ili tamam olur. "Əsrin müqaviləsi" adlanan bu sənəd iqtisadi bir nailiyyət olmaqla yanaşı, həm də daha geniş regionda siyasi reallıqları dəyişib. Son 25 ildə hasil olunmuş karbohidrogen ehtiyatları Avropanın bir neçə ölkəsi üçün alternativ enerji mənbəyinə çevrilib.

Müəllif diqqətə çatdırıb ki, Xəzər regionu özünün zəngin təbii ehtiyatları ilə artıq XX əsrin əvvəlində Vaşinqtonun diqqətini cəlb edib. Mərhum Amerika diplomatı, ABŞ-ın milli təhlükəsizlik üzrə sabiq müşaviri Zbiqnev Bjezinski Azərbaycanı Xəzər hövzəsinin və Mərkəzi Asiyanın sərvətlərinin olduğu "butulka tıxacı" adlandırıb. Rusiya ilə İranın arasında yerləşən Azərbaycan sovet dövründə neft hasilatının mərkəzi olub. Məhz Azərbaycan nefti İkinci Dünya müharibəsində sovet tanklarını cəbhə xəttində hərəkətə gətirib və bununla da nasistlərin SSRİ-nin ərazisinin içərilərinə doğru irəliləməsinin qarşısı alınıb. Həmin vaxt Azərbaycan sovet neftinin 75 faizini hasil etdiyi üçün nasistlərin Bakını ələ keçirməsi sovet dövlətinin mövcudluğunu təhlükə altına qoyurdu.

Müharibədən sonrakı illərdə çoxlu neft və qaz yataqları kəşf olunub, lakin Azərbaycanın neft sərvətlərinin incisi 1980-ci illərin ortalarında aşkar edilmiş "Azəri-Çıraq-Günəşli" yataqlarıdır. "Əsrin müqaviləsi"nin əsasını da məhz onlar təşkil edir. Sovet İttifaqının süqutundan sonra istehsal avadanlıqlarının dağılması və texnologiyaların olmaması ucbatından Azərbaycanın xarici sərmayələrə, nou-hau və neft yataqlarının işlənilməsi üçün müasir texnologiyalara ehtiyacı vardı. ARDNŞ və beynəlxalq şirkətlər arasında (BP başda olmaqla və dörd Amerika şirkətinin iştirakı ilə) üç il davam edən danışıqlar Azərbaycan Prezidenti Heydər Əliyevin rəhbərliyi altında uğurla başa çatdırıldı. Müəllif qeyd edir ki, layihənin başlanğıc mərhələsində Birləşmiş Ştatlarda o vaxt hakimiyyətdə olan Klinton administrasiyası Azərbaycana böyük siyasi dəstək göstərdi.

Sonra məqalədə Azərbaycan neftinin 1997-ci ildən Bakı-Supsa boru kəməri ilə nəqli, 2006-cı ildə isə Bakı-Tbilisi-Ceyhan boru xəttinin açılışı barədə məlumat verilir. Qeyd olunub ki, İsrailin idxal etdiyi xam neftin də 40 faizi Azərbaycanda hasil olunur.

Romero vurğulayıb ki, sərmayəçilərə 7,4 milyard dollara başa gələn layihə Azərbaycana və onun tərəfdaşlarına milyardlarla dollar gəlir gətirərək minlərlə iş yerinin açılmasına səbəb olub.

Müəllif daha sonra yazıb ki, "Əsrin" müqaviləsi"ndən daxil olan gəlirlər hesabına Azərbaycan ölkənin infrastrukturuna, sosial inkişafına, təhlükəsizliyinə sərmayələr qoyub və başqa energetika və nəqliyyat layihələrinə başlamaqla regionun siyasi və iqtisadi müstəqilliyinin dəstəklənməsinə kömək edib. 2019-cu ilin sonunda Azərbaycan qazını Avropa bazarlarına çatdıracaq "Cənub qaz dəhlizi" Şərqi Avropa ölkələrinin digər istehsalçılardan asılılığını azaltmaq yolu ilə geosiyasi reallıqların dəyişməsinə şərait yaradacaq.

Romero məqalənin sonunda qeyd edib ki, istər respublikaçılar, istərsə də demokratların bir-birini əvəz etdikləri ABŞ administrasiyaları uzun illər ərzində Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində "Cənub qaz dəhlizi"nin əhəmiyyətini vurğulayıblar. Prezident Trampın "Əsrin müqaviləsi"nin timsalında Xəzər regionunun enerji layihələrinə verdiyi dəstək onu avropalı tərəfdaşların milli və beynəlxalq maraqlarını birləşdirən Amerika layihəsi kimi xarakterizə edir. Qərblə yeni müstəqil dövlətlər arasında dayanıqlı iqtisadi və siyasi əməkdaşlığın əsası da ABŞ-ın xarici siyasət hədəflərinə uyğundur. "Əsrin müqaviləsi" bu əlaqəni gələcəkdə də davam etdirəcək.

# Dənizkənarı Milli Parkda Azərbaycanın multikultural dəyərlərinə həsr olunmuş fotosərgi açılıb







Sentyabrın 20-də Dənizkənarı Milli Parkda Azərbaycanın multikultural dəyərlərinə həsr olunmuş "Bir günəş altında" adlı fotosərgi açılıb.

AZƏRTAC xəbər verir ki, sərgi Heydər Əliyev Fondunun dəstəyi, Bakı Media Mərkəzinin təşkilatçılığı ilə reallaşıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərginin açılışında iştirak edib.

Bu sərgidə Azərbaycanda yaşayan müxtəlif xalqların nümayəndələrinin Bakı Media Mərkəzinin peşəkar fotoqrafları tərəfindən lentə alınmış fotoşəkilləri təqdim edilir. Sərgidə nümayiş olunan fotoların müəllifləri Bakı Media Mərkəzinin fotoqrafları Vüqar İbadov və Zaur Mirzəyevdir.

Vüqar İbadov fotosərgi ilə bağlı təəssüratlarını jurnalistlərlə bölüşərək deyib: "Bu, Heydər Əliyev Fondunun dəstəyi ilə Bakı Media Mərkəzinin reallaşdırdığı layihədir. Bu sərgidə yer alan fotoların ərsəyə gəlməsinə bir il vaxt sərf edilib. Biz bu müddət ərzində ölkəmizin bir sıra regionlarında olmuşuq. Demək olar ki, bütün fəsillərdə rayonlarda və ucqar kəndlərdə çəkilişlər aparmışıq. Bu sərgidə həm də biz ölkəmizin tolerant dəyərlərini göstəririk. Fotosərgi bundan əvvəl Fransanın Paris və Kann şəhərlərində Azərbaycan günləri çərçivəsində də təqdim olunub. Bu işin ərsəyə gəlməsində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya təşəkkürümüzü bildiririk".

Zaur Mirzəyev layihə ilə bağlı məlumat verərək deyib ki, hələ çəkilişlərə 2016-cı ildən başlanılıb. Ölkəmizdə yaşayan azsaylı xalqlar haqqında ekranlaşdırılan "Bir günəş altında" filminin çəkilişləri zamanı bu layihəyə start verilib. Sərgidən gördüyünüz kimi, biz müxtəlif bölgələrdə yaşayan azsaylı xalqların tanınmış və yaşlı nəslinin nümayəndələrinin şəkillərini də çəkmişik. Layihənin məqsədi ölkəmizdə tolerant və multikultural ənənələri çəkib göstərmək, təbliğ etməkdir. Layihənin reallaşdırılması zamanı filmin lentə alındığı bütün regionlarda fotoçəkilişlər aparılıb, fərqli etnik qruplara aid insanların həyatının bir anı əks olunub.

Fotosərginin təşkil edilməsində məqsəd Azərbaycanda tolerant mühitin formalaşdığını, dinindən, dilindən, milliyyətindən asılı olmayaraq hər kəsin bərabər hüquq və azadlıqlardan istifadə etmək imkanı qazandığını bir daha göstərməkdir.

Qeyd edək ki, Bakı Media Mərkəzi Heydər Əliyev Fondunun dəstəyi ilə 2016-cı ildə Azərbaycanda "Multikulturalizm ili" çərçivəsində "Bir günəş altında" adlı film ərsəyə gətirmiş, filmdə Azərbaycanda yaşayan 17 xalqın nümayəndələrinin həyat və məişətini, mədəniyyət və incəsənətini nümayiş etdirmişdi. Mərkəzin əməkdaşları adıçəkilən layihə çərçivəsində Azərbaycanın müxtəlif bölgələrində 54 kənd və qəsəbənin sakinlərini lentə alıb, Azərbaycan təbiətinin gözəlliyini əks etdirən 3850 mənzərənin, bu gözəl təbiətin qoynunda yaşayan müxtəlif yaşlı, fərqli etnik qruplara aid 2625 insanın fotosunu çəkib.

Sərgidə bu şəkillərin içərisindən seçilən 80 foto nümayiş olunur.

# Neft gəlirləri Azərbaycanın güclü iqtisadi bazasının formalaşmasında misilsiz rol oynadı

1994-cü il sentyabrın 20-də Bakıda Qərbin neft şirkətləri ilə bağlanmış saziş Azərbaycanın yeni tarixinin şanlı səhifəsini açdı. "Əsrin müqaviləsi" adı ilə indi bütün dünyada tanınan bu kontraktın imzalanması ilə ölkəmiz yeni inkişaf erasına daxil oldu. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilən neft strategiyası Azərbaycanı lider ölkələr sırasına yüksəltdi.



"Əsrin müqaviləsi" ölkəmizin yeni neft strategiyasının əsasını qoymaqla yanaşı, həm də təsdiqlədi ki, müstəqil Azərbaycan xalqı suveren hüquqlara malikdir və öz sərvətinin sahibidir. Bu müqavilə Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının tammiqyaslı işlənməsini əhatə edir. AÇG layihəsi çərçivəsində ilkin neft 1997-ci il noyabr ayında "Çıraq" platformasından hasil olunub. Həmin vaxtdan 2018-ci ilin sonunadək AÇG blokundan 3,5 milyard barel neft çıxarılıb.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) məlumatına görə, AÇG yataqları üzrə əldə olunan ümumi gəlirlər 2001-ci ildən bu il iyulun 31-dək 143 milyard 366 milyon dollar təşkil edib. Cari il yanvarın 1-dən iyulun 31-dək AÇG-dən 5 milyard 160 milyon dollar həcmində gəlir əldə olunub.

Yeri gəlmişkən qeyd edək ki, ARDNF-nin təsis edilməsi haqqında fərmanı Ümummilli Lider Heydər Əliyev 1999-cu il dekabrın 29-da imzalayıb. Bundan yarım il sonra isə növbəti fərmanla fondun vəsaitlərinin yerləşdirilməsi qaydaları təsdiq edilib və qurum əməli fəaliyyətə başlayıb. Bu fondda toplanan, yəni neft müqavilələrindən əldə edilən gəlirlər Azərbaycanın simasını yaxşı mənada büsbütün dəyişmişdir.

Prezident İlham Əliyev cari il mayın 29-da 26-cı Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin açılışındakı nitqində bu barədə demişdir: "Dövlət Neft Fondunun yaradılması və Dövlət Neft Fondunun xətti ilə ən vacib məsələlərin həlli - bu da uğurlu neft siyasətimizin nəticəsində olmuşdur. Yüzdən çox köçkün şəhərciyi Dövlət Neft Fondunun xətti ilə inşa edilmişdir. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və infrastruktur layihələrinə investisiya qoyuluşu da məhz bu layihələrlə bağlıdır. Biz son illər ərzində əsas infrastruktur layihələrimizi icra etdik və bu istiqamətdə işlər davam etdirilir. Həm yol tikintisi, həm qazlaşdırma, həm də elektrik enerjisi ilə bağlı olan məsələlər Azərbaycanda uğurla icra edilir".

İndiyədək ölkəmizdə 3 mindən çox məktəb, 600-dən çox tibb ocağı tikilmiş, infrastruktur yenilənmiş, vətəndaşların sosial rifahına xidmət edən layihələr həyata keçirilmişdir. Neftdən gələn gəlirlər hesabına iqtisadiyyatımız şaxələndirilir, qeyri neft-qaz sektoru inkişaf edir. Dünya Bankının son hesabatında biznes mühitinə görə Azərbaycan dünya miqyasında 25-ci yerdədir.

Azərbaycanın yaratdığı mükəmməl neft-qaz infrastrukturu, diversifikasiya edilmiş ixrac marşrutları da məhz "Əsrin müqaviləsi"ndən qaynaqlanır. Bu gün ölkəmizdən müxtəlif istiqamətlərdə ixrac marşrutları uzanır. 1330 kilometrlik Bakı-Novorossiysk (Şimal İxrac Boru Kəməri), 833 kilometrlik Bakı-Supsa (Qərb İxrac Boru Kəməri) xətləri, 1768 kilometrlik Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri Azərbaycan neftini ahəngdar və təhlükəsiz şəkildə dünya bazarlarına ixrac edir.

Hazırda Azərbaycanın təşəbbüsü və liderliyi ilə gerçəkləşən "Cənub qaz dəhlizi" layihəsi sona çatmaqdadır. Üç birinci seqmenti fəaliyyətdə olan layihənin dördüncü, yəni sonuncu hissəsinin - Transadriatik Qaz Boru Kəmərinin (TAP) çəkilişi də yekunlaşır. 3500 kilometrlik dəhlizlə Azərbaycan qazı gələn il Avropaya çatdırılacaq. Bu nəhəng layihənin həyata keçirilməsini Prezident İlham Əliyevin qətiyyətli, milli maraqlara əsaslanan düşünülmüş və prinsipial siyasəti təmin etmişdir.

"Cənub qaz dəhlizi" qarşıdan gələn 100 il ərzində Azərbaycan xalqına xidmət edəcək və milli iqtisadiyyatın inkişafında mühüm faktor olacaq bir layihədir. O, ölkəmizin regionda və Avropada əhəmiyyətinin artmasını, Azərbaycanla Qərb arasında münasibətlərin daha yüksək pilləyə qalxmasını şərtləndirəcək. Nəticədə Azərbaycanın təkcə enerji ixrac edən ölkə kimi deyil, həm də onu nəql edən tranzit ölkə kimi əhəmiyyəti artacaq.

Bu dəhliz, eləcə də Avropanın enerji təchizatının şaxələndirilməsində ciddi amilə çevriləcək və region ölkələrinin öz enerji resurslarını dünya bazarına çıxarmaq üçün yeni mənbə rolunu oynayacaq. Regionun və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində böyük əhəmiyyətə malik olan layihə həm də dövlətlər və xalqlar arasında qarşılıqlı əməkdaşlığın, işgüzar əlaqələrin inkişafına töhfə verəcək, regionda təhlükəsizliyin və sabitliyin təmin olunmasına ciddi təsir göstərəcək. Layihədə iştirak edən bütün ölkələr, şirkətlər mənfəət əldə edəcək, yeni iş yerləri yaradılacaq və insanların rifahının yüksəlməsinə pozitiv təsir göstərəcək.

"Əsrin müqaviləsi"nin uzaqgörənliklə seçilmiş bir strategiyanın başlanğıcı olduğunu təsdiqləyən faktlardan biri də odur ki, bu kontraktdan sonra Azərbaycan 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 saziş imzalayıb.

Ötən illər ərzində AÇG-nin yeni potensialı da üzə çıxıb. Belə ki, ilkin hesablamalara görə, "Azəri", "Çıraq" yataqlarından və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsindən çıxarıla bilən neft ehtiyatı 511 milyon ton idi. Sonralar yeni qiymətləndirmələrə əsasən, neft ehtiyatının 1,072 milyard ton həcmində olduğu müəyyən edildi. 2017-ci ilin sentyabrında AÇG üzrə yeni sazişin imzalanması, yəni "Əsrin müqaviləsi"nin 2050-ci ilin əvvəlinədək uzadılması da buna əsaslanıb. Həmin vaxtadək AÇG-yə 40 milyard dollardan çox sərmayə qoyulması nəzərdə tutulub. Xarici investorlar ARDNF-yə 3,6 milyard dollar həcmində bonus ödəyəcəklər. 2018-ci ilin əvvəlində 450 milyon dollardan ibarət ilk bonus artıq həyata keçirilib.

Prezident İlham Əliyevin dediyi kimi, bu layihələrin icrası və ümumiyyətlə, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyası tamamilə yeni bir vəziyyət yaratmış və ölkəmiz sürətlə inkişaf etmişdir. "Əsrin müqaviləsi" Ümummilli Liderin bugünkü və sabahkı nəsillər qarşısında tarixi xidmətidir. Xatırladaq ki, Ulu Öndərin 26 avqust 2001-ci il tarixli fərmanı ilə sentyabrın 20-si Azərbaycanda hər il Neftçilər Günü kimi də qeyd edilir. Odur ki, Azərbaycan neftçiləri "Əsrin müqaviləsi"nin şanlı yubileyi ilə yanaşı, özlərinin peşə bayramlarını da qeyd edirlər.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Neftçilərin Üzeyir Hacıbəyli festivalına musiqi töhfəsi

Sentyabrın 20-si Azərbaycanda Neftçilər günü və "Əsrin müqaviləsi"nin 25-ci ildönümüdür. 1994-cü il sentyabrın 20-də Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və dünyanın aparıcı neft kampaniyaları arasında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi haqqında beynəlxalq müqavilənin imzalanması ilə ölkəmizin müstəqil neft strategiyasının əsası qoyulub.

Ulu öndər Heydər Əliyevin banisi olduğu bu strategiya XXI əsr Azərbaycanın, yeni dövlət quruculuğunun möhkəm iqtisadi, geosiyasi sütunu oldu. Bu, o dövr üçün dünyanın ən böyük neft müqaviləsi idi və miqyasına, strateji mahiyyətinə uyğun olaraq "Əsrin müqaviləsi" adı ilə tarixə həkk edildi.

AZƏRTAC xəbər verir ki, bu münasibətlə sentyabrın 20-də Heydər Əliyev Mərkəzində möhtəşəm konsert proqramı təqdim olunub. Bu günlər ölkəmizdə davam edən XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı ilə bir vaxta təsadüf edən konsert proqramı, eyni zamanda, neftçilərin bu musiqi bayramına töhfəsidir.

Konsertdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının orkestrinin (dirijor Əyyub Quliyev) müşayiəti ilə Azərbaycan, Türkiyə və Gürcüstanın üç tanınmış tenoru çıxış edib. Gecədə üç ölkənin görkəmli bəstəkarlarının əsərləri səsləndirilib.

Konsert Üzeyir Hacıbəylinin "Koroğlu" operasından "Uvertüra" ilə başlayıb. Daha sonra "Koroğlu" operasından Koroğlunun ariyası (solist Samir Cəfərov), gürcü bəstəkarı Zaxar Paliaşvilinin "Daisi" operasından Malxazın ariyası (solist Georgi Davitadze), türk bəstəkarı Ali Rza bəy Kaptanzadənin "Efem" türküsü (solist Levent Gündüz) səsləndirilib.

Proqramda, həmçinin Polad Bülbüloğlunun "Eşq və ölüm" baletindən "Cəngi", Tofiq Quliyevin "Sənə də qalmaz" (solistlər Samir Cəfərov və Levent Gündüz) mahnısı, Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından Əsgərin ariyası (Samir Cəfərov, Georgi Davitadze), italyan mahnılarından ibarət popurri (üç tenorun ifasında), Cakomo Puççininin "Turandot" operasından Kalafın ariyası (üç tenor), "Qranada" və "Xalq Heydər" (hər ikisi üç tenorun ifasında) mahnıları təqdim olunub.

# Subsidiyaların verilməsi qaydası elektronlaşdırılır

Sentyabrın 20-də Milli Məclisin Aqrar siyasət komitəsinin payız sessiyasında ilk iclası keçirildi.

Sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanmasının 25-ci ildönümünün tamam olduğunu deyən komitə sədri Eldar İbrahimov respublikamızın enerji strategiyasının həyata keçirilməsində Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin tarixi xidmətlərindən söz açdı.

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başladı. İlk olaraq Aqrar siyasət komitəsinin 2019-cu ilin yaz sessiyasındakı fəaliyyəti barədə məlumat verildi. Bildirildi ki, komitə 2019-cu ilin yaz və növbədənkənar sessiyaları dövründə öz fəaliyyətini Milli Məclisin qanunvericilik fəaliyyəti sahəsində nəzərdə tutulmuş iş planına uyğun həyata keçirib. Qanun layihələrinin müzakirələri komitənin iclaslarında vaxtında keçirilib, vətəndaşların qəbulu, ərizə və müraciətlərinə baxılması sahəsində müntəzəm iş aparılıb. Hesabat dövründə komitənin 12 iclası keçirilib, 36 məsələ, o cümlədən 14 qanun layihəsi müzakirə edilib. Qanun layihələri Milli Məclisdə qəbul edilib.

Aqrar siyasət komitəsinə 49 vətəndaşın imzası ilə ərizə, şikayət və müraciət daxil olub, 25 ərizə tədbir görülməsi üçün müvafiq təşkilatlara göndərilib. 24 nəfər vətəndaş Milli Məclisdə qəbul edilib.

Daha sonra Eldar İbrahimov Aqrar siyasət komitəsinin 2019-cu il payız sessiyasının qanunvericilik işləri planı barədə məlumat verdi. Onun sözlərinə görə, sessiya müddətində komitədə qanunvericilik təşəbbüsü qaydasında təqdim olunacaq qanun layihələri müzakirə ediləcək. Müzakirə olunacaq belə məsələlərdən biri "Qida təhlükəsizliyi haqqında" qanun layihəsidir. Sonra iş planı təsdiq olundu.

Aqrar siyasət komitəsinin dünənki iclasında "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 27 iyun 2019-cu il tarixli fərmanına uyğun olaraq kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması sahəsində görülən işlərlə bağlı məlumat da dinlənildi. Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin sədri Mirzə Əliyev görülən işlərlə bağlı ətraflı məlumat verdi. Qeyd etdi ki, həyata keçirilən islahatlara, idarəetmənin təkmilləşdirilməsinə uyğun olaraq kənd təsərrüfatı istehsalçılarına subsidiyalar elektron şəkildə veriləcək. Bunun üçün kənd təsərrüfatı istehsalçısı elektron subsidiya sistemində qeydiyyatdan keçərək fəaliyyəti ilə bağlı informasiyaları göstərməlidir. Bundan sonra istehsalçıya nə qədər subsidiya verilməsi müəyyən olunacaq. Vəsait birbaşa istehsalçının kart hesabına köçürüləcək. Beləliklə, yeni qaydalara əsasən subsidiya üçün ayrı-ayrı komissiyalara müraciət etməyə ehtiyac olmayacaq.

Yekunda Mirzə Əliyev məsələ ilə bağlı komitə üzvlərinin suallarını cavablandırdı.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Azərbaycan Çinə 1,7 milyard dollar sərmayə yatırıb

"Azərbaycan Çinlə sənaye, kənd təsərrüfatı, ticarət, turizm, İKT, nəqliyyat-logistika sahələrində uğurlu əməkdaşlıq edir. Ölkəmizdə 119 Çin kapitallı şirkət fəaliyyət göstərir. Bu ilin birinci yarısında iki ölkə arasında ticarət dövriyyəsi 2,3 dəfə artaraq 1,4 milyard dollardan çox olub. Qarşılıqlı investisiya əlaqələrimiz genişlənir. Çindən Azərbaycan iqtisadiyyatına 800 milyon dollardan çox, Azərbaycandan isə Çinə 1,7 milyard dollar sərmayə yatırılıb".



Bu fikirləri İqtisadiyyat naziri Şahin Mustafayev Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşunun ölkəmizə səfəri çərçivəsində "SINOMACH Group"un marketinq direktoru, "China CAMC Engineering" şirkətinin prezidenti Luo Yanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə söyləyib.

Şahin Mustafayev Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədrinin Azərbaycana səfərinin mühüm əhəmiyyətini, Azərbaycan-Çin əlaqələrinin davamlı inkişafını diqqətə çatdırıb. Şahin Mustafayev Azərbaycan və Çin dövlət başçıları arasında qarşılıqlı hörmətə və etimada əsaslanan münasibətlərin ölkələrimiz arasında fəal dialoqun əsasını təşkil etdiyini və ikitərəfli əməkdaşlığın genişləndirilməsində mühüm rol oynadığını vurğulayıb.

Qeyd edilib ki, Prezident İlham Əliyevin Çin Xalq Respublikasına səfərləri, bu ilin aprelində Pekində keçirilən 2-ci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunda iştirakı, Çin Xalq Respublikasının Sədri cənab Si Cinpinlə görüşü və forum çərçivəsində imzalanan sənədlər əlaqələrin inkişafı baxımından xüsusi əhəmiyyət daşıyır.

Bu gün iki ölkə arasında uğurlu əməkdaşlıq davam edir. İqtisadiyyata qarşılıqlı sərmayə qoyuluşları, ticarət dövriyyəsinin artırılması üçün geniş imkanlar mövcuddur və bu istiqamətlərdə davamlı olaraq tədbirlər həyata keçirilir. Hazırda Çində Azərbaycanın 2 şərab və 1 ticarət evi fəaliyyət göstərir. Çində Azərbaycanın daha 3 ticarət və 1 şərab evinin açılması nəzərdə tutulur. Azərbaycan istehsalçıları mütəmadi olaraq Çində keçirilən beynəlxalq sərgilərdə iştirak edir, Çinə ixrac missiyaları təşkil olunur. Ötən il ölkəmiz Birinci Çin Beynəlxalq İdxal Sərgisində vahid ölkə stendi ilə böyük çeşiddə məhsullarını nümayiş etdirib. Bu il təşkil olunacaq İkinci Çin Beynəlxalq İdxal Sərgisində də Azərbaycan şirkətlərinin iştirakı nəzərdə tutulur. Aparılan işlər Azərbaycan məhsullarının Çində daha çox tanıdılmasına imkan yaradır.

Sənaye sahəsində əlaqələrdən danışan nazir "China CAMC Engineering" şirkəti ilə Azərbaycan şirkətləri arasında imzalanan sənədlərin də uğurlu əməkdaşlığın nəticəsi olduğunu vurğulayıb və bu sənədlərin böyük həcmli investisiya qoyulması, minlərlə yeni iş yerinin açılmasına imkan yaratdığını qeyd edib.

"SINOMACH Group"un marketinq direktoru, "China CAMC Engineering" şirkətinin prezidenti Luo Yan isə vurğulayıb ki, Azərbaycandakı əlverişli investisiya mühiti və biznesə yüksək dövlət dəstəyi özəl sektorun inkişafına, investisiya qoyuluşuna geniş imkanlar açır.

Görüş çərçivəsində qarşılıqlı investisiyaları cəlb etməklə kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və qablaşdırılması, kənd təsərrüfatı təyinatlı maşın və avadanlıqların istehsalı, logistika və digər xidmət sahələri üzrə aqrar-sənaye parkının yaradılması barədə "Azərbaycan İnvestisiya Şirkəti" ilə "China CAMC Engineering" şirkəti arasında Anlaşma Memorandumu, Azərbaycanın "AS Investment" şirkəti və "China CAMC Engineering" şirkəti arasında mühəndislik, inşaat və təchizat müqaviləsi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ilə "China CAMC Engineering" şirkəti arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

***R.BAXŞƏLİYEV, "Azərbaycan"***

# Müdafiə Nazirliyində kollegiya iclası keçirilib





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən keçirilən genişmiqyaslı əməliyyat-taktiki təlimlərinin və 2019-cu ilin doqquz ayının yekunlarına dair Müdafiə Nazirliyinin kollegiya iclası keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

İclasda Müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev Silahlı Qüvvələrin Ali Baş Komandanının tapşırığına əsasən cari ilin doqquz ayı ərzində ordu quruculuğu sahəsində aparılan islahatlar, Azərbaycan Ordusunun döyüş fəaliyyəti, silah və texnika ilə təchizatı, maddi-texniki təminatı, kadr islahatları, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması, həmçinin əldə edilən nailiyyətlər barədə geniş məruzə ilə çıxış edib. Bildirib ki, hesabat dövründə müxtəlif növ hərbi təlimlər, döyüş hazırlığı məşğələləri keçirilib, qoşunların və ön xətt bölmələrinin döyüş qabiliyyəti artıb, şəxsi heyətin peşəkarlıq səviyyəsi yüksəlib.

General-leytenant K.Vəliyev qeyd edib ki, Azərbaycan Ordusunun tabeliyində olan bütün hərbi hissələrdə və hərbi-təhsil müəssisələrində, xüsusilə də ön xətt bölmələrində böyük həcmdə quruculuq, o cümlədən təmir-bərpa işləri aparılıb, yeni hərbi obyektlər istifadəyə verilib, şəxsi heyətin sosial təminatının yaxşılaşdırılması istiqamətində bir sıra addımlar atılıb.

Nazirliyin rəhbər heyəti, birlik və birləşmələrin komandir və qərargah rəisləri, o cümlədən məsul zabitlərin iştirak etdikləri kollegiya iclasına yekun vuran Müdafiə naziri, general-polkovnik Zakir Həsənov təlimlərin nəticələrini təhlil edib. Nazir bildirib ki, qarşıya qoyulan vəzifələr tam həcmdə yerinə yetirilib və plana uyğun olaraq qoşunlar irimiqyaslı döyüş əməliyyatları üzrə tapşırıqları uğurla icra ediblər. General-polkovnik Zakir Həsənov təlimlər zamanı idarəetmə orqanları və qoşunların əməliyyat hazırlığının daha da təkmilləşdirildiyini və qərargahların öz vəzifələrini müvəffəqiyyətlə icra etdiyini deyib.

Nazir komandanlığın qoşunları idarəetmə bacarığı və hərbi qulluqçuların döyüş əzmini yüksək qiymətləndirib.

General-polkovnik Z.Həsənov keçirilən genişmiqyaslı təlimlərin əhəmiyyətini vurğulayaraq Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları bir daha kollegiya iştirakçılarının diqqətinə çatdırıb.

# Xarici İşlər nazirinin müavini Xələf Xələfova Rusiya XİN-in "Beynəlxalq əməkdaşlığa töhfəyə görə" nişanı təqdim olunub

Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini Xələf Xələfov 60 illik yubileyi münasibətilə Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin "Beynəlxalq əməkdaşlığa töhfəyə görə" nişanına layiq görülüb.



XİN-in mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, mükafatı təqdim etmək məqsədilə Xarici İşlər Nazirliyinə gələn Rusiyanın ölkəmizdəki səfiri Mixail Boçarnikov Xarici İşlər naziri Sergey Lavrovun məktubunu oxuyaraq, Xələf Xələfovun çoxşaxəli Azərbaycan-Rusiya əməkdaşlığının möhkəmləndirilməsinə önəmli töhfə verdiyini qeyd edib.

# *Kristian OKERHELM:* "Azərbaycanda bütün dini konfessiya nümayəndələri üçün azad və tolerant mühit yaradılıb"

Sentyabrın 20-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı İsveçdə fəaliyyət göstərən "Həyat sözü" beynəlxalq kilsəsinin direktoru Kristian Okerhelm və "Həyat sözü" cəmiyyətinin MDB ölkələri və beynəlxalq xidməti üzrə nümayəndəsi Karl Qustav Severin ilə görüşüb.



DQİDK-nın mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə komitə sədri qonaqlara ölkəmizdəki nümunəvi dövlət-din münasibətləri, dinc birgəyaşayış ənənəsi, tolerantlıq siyasəti, eyni zamanda, dini konfessiyalara göstərilən diqqət və qayğı barədə məlumat verib. Bildirib ki, Azərbaycanda fəaliyyət göstərən dini konfessiyalar arasındakı münasibətlər qarşılıqlı hörmətə və əməkdaşlığa əsaslanır. Prezident İlham Əliyevin Azərbaycanda multikultural dəyərlərin qorunması və tolerant münasibətlərin inkişafı yönündə atdığı addımlar davamlı xarakter daşıyır.

Bu gün Azərbaycanda 24-ü xristian, 8-i yəhudi, 1-i krişna və 2-si bəhai olmaqla 35 qeyri-müsəlman dini icmasının dövlət qeydiyyatına alındığını qeyd edən komitə sədri eyni zamanda xristian icmalarının Azərbaycandakı fəaliyyətindən danışıb. Qeyri-islam dini qurumların fəaliyyətinə dövlət tərəfindən hərtərəfli dəstəyin göstərildiyini, icmalara mütəmadi maddi vəsaitlərin ayrıldığını diqqətə çatdıran Mübariz Qurbanlı "Həyat sözü" Xristian dini icması ilə dövlət komitəsinin səmərəli və sıx əməkdaşlıq etdiyini vurğulayıb.

Ölkəmizə ilk dəfə 25 il öncə səfər etdiyini deyən "Həyat sözü" beynəlxalq kilsəsinin direktoru Kristian Okerhelm həmin dövrdəki çətinliklərə baxmayaraq, hazırda Azərbaycanın çox dəyişdiyini, uğurlu iqtisadi inkişafa nail olduğunu bildirib. Ulu Öndər Heydər Əliyevlə görüşlərini xüsusi ehtiramla xatırladan qonaq respublikamızda multikultural mühitin qorunması və inkişafı yönündə ardıcıl, məqsədyönlü addımların atılmasını yüksək qiymətləndirib. Azərbaycanda bütün dini konfessiya nümayəndələri üçün yaradılan azad və tolerant mühitə görə məmnunluğunu ifadə edən K.Okerhelm vurğulayıb ki, Azərbaycanın dünyaya əyani nümayiş etdirdiyi birgəyaşayış nümunəsinin kökündə dini azadlıqların təmin edilməsi dayanır.

Kristian Okerhelm "Həyat sözü" xristian dini icmasının Azərbaycanda fəaliyyətə başlamasının 25 ilinin tamam olduğunu bildirib və icmanın bu münasibətlə keçirəcəyi tədbirə komitə rəsmilərini dəvət edib.

Görüşün sonunda qonaqlara DQİDK-nın nəşr etdirdiyi, Azərbaycanda mövcud olan multikulturalizm və tolerantlıq ənənələrindən, eləcə də işğal olunmuş ərazilərimizdə vandalizm hərəkətlərinə məruz qalan tarixi-dini abidələrdən bəhs edən kitablar təqdim olunub.

Qeyd edək ki, kilsə 1983-cü ildən İsveçdə fəaliyyət göstərir və təkcə Skandinaviya ölkələri deyil, bütün dünya üçün mərkəz rolunu oynayır. Kilsədə uşaq bağçaları və xristian məktəbləri, eyni zamanda, Bibliya məktəbi mövcuddur. MDB ölkələrində "Həyat sözü" kilsəsinin 200 minə yaxın üzvü və mindən çox kilsəsi var.

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Sentyabrın 20-də Ədliyyə naziri Fikrət Məmmədov Qəbələ rayon Mədəniyyət Mərkəzində Qəbələ, İsmayıllı, Oğuz rayonlarında yaşayan və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbul zamanı ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərə baxılıb, hər bir vətəndaş diqqətlə dinlənilib. Müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə həllini tapıb. Digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

* * *

Sentyabrın 20-də Mədəniyyət naziri Əbülfəs Qarayev Naftalan şəhərində Naftalan şəhəri və Samux rayonundan olan vətəndaşlarla görüşüb.

Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev həmin gün Gəncə şəhər Heydər Əliyev Mərkəzində Gəncə şəhəri və Kəlbəcər rayonundan, nazir müavini Rafiq Bayramov Goranboy rayon Heydər Əliyev Mərkəzində Goranboy və Xocalı rayonlarından olan vətəndaşları qəbul ediblər.

Nazirlikdən bildirilib ki, nazir Əbülfəs Qarayev vətəndaşlarla görüşdən əvvəl yeni təmir-bərpa olunmuş Naftalan şəhər Mədəniyyət Mərkəzi, şəhər tarix-diyarşünaslıq muzeyi və Nizami Gəncəvi adına Mərkəzi kitabxana ilə tanış olub. Nazir mədəniyyət müəssisələrinin fəaliyyətinin daha da yaxşılaşdırılması, əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi istiqamətində zəruri addımları diqqətə çatdırıb. Hərbi hissələrlə sıx əməkdaşlıq, hərbi hissələrdə konsert proqramlarının və səyyar kitabxanaların təşkil olunmasının vacibliyi vurğulanıb. Nazir həmçinin bölgəyə gələn turistlərin mədəniyyət müəssisələrinin göstərdiyi xidmətlərdən yararlanması, istirahət mərkəzlərində səyyar kitabxanaların təşkil olunması və digər bu kimi məsələlərin həlli istiqamətində tapşırıq və tövsiyələrini verib.

* * *

Sentyabrın 20-də Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimov Abşeron rayonundan olan vətəndaşları qəbul edib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, 20-yə yaxın vətəndaşın iştirak etdiyi qəbulda Gənclər evinin, idman qurğularının tikilməsi və təmiri, fəxri adların verilməsi və şəxsi məsələlərlə bağlı müraciətlər dinlənilib.

Müraciətlərin bir qismi yerindəcə həll edilib. Nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətlərin isə qeydə alınaraq aidiyyəti üzrə göndərəcəyi bildirilib, bir qismi isə baxılması üçün icraya yönəldilib.

* * *

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev sentyabrın 20-də Ağdam rayonunda məcburi köçkünləri qəbul edib.

Dövlət komitəsindən verilən məlumata görə, qəbulda Ağdamda müvəqqəti məskunlaşmış 115 nəfər məcburi köçkün iştirak edib.

Müraciətlər əsasən dövlət mənzil fonduna məxsus xüsusi təyinatlı yaşayış sahələrinin verilməsi, vahid aylıq müavinətin təyin edilməsi və məşğulluq məsələləri ilə bağlı olub. Bildirilib ki, Prezident İlham Əliyev məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsinə daim diqqət göstərir. Məcburi köçkünlər üçün yeni qəsəbələr salınır, onlara mənzillərin verilməsində ədalət və şəffaflıq təmin edilir.

Qəbul zamanı məcburi köçkünlərin qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll olunub. Digər məsələlərin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

* * *

Sentyabrın 20-də Ali Məhkəmənin sədri Ramiz Rzayev Lənkəran Ağır Cinayətlər Məhkəməsinin inzibati binasında vətəndaşları qəbul edib.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi yerindəcə müsbət həllini tapıb. Araşdırılması tələb olunan müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq həlli ilə əlaqədar Ali Məhkəmə Aparatının qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

* * *

Sentyabrın 20-də Təhsil nazirinin müavini Firudin Qurbanov Şamaxı şəhərindəki Heydər Əliyev Mərkəzində Şamaxı və Qobustan rayonlarının sakinlərini qəbul edib.

Təhsil Nazirliyindən bildiriblər ki, 2019-cu ilin sentyabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən qəbulda həmin rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Nazir müavini vətəndaşların müraciət və təkliflərini dinləyib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli ilə bağlı tapşırıqlar verib.

Qəbulda vətəndaşlar əsasən müəllimlərin işə qəbulu, dərs saatlarının artırılması, ali təhsil sənədlərinin (diplomların) tanınması (nostrifikasiya) və digər məsələlərlə bağlı müraciət ediblər.

* * *

Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov Xaçmazda vətəndaşları qəbul edib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən verilən məlumata görə, nazir müavini görüşdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi, pensiya, müavinət və təqaüdlərin əhəmiyyətli şəkildə artırılması üçün atılan addımlar barədə məlumat verib. O, məşğulluq, sosial təminat, əmək sahələrində xidmətlərin keyfiyyətinin artırılması, həmin xidmətlərin şəffaflaşdırılması və operativ təşkili, vətəndaş məmnunluğuna nail olunması istiqamətində aparılan islahatları diqqətə çatdırıb.

Qəbul zamanı müraciətlərin bir qismi sorğu xarakterli olub və qanunvericiliyə uyğun izahatlar verilib. Bir neçə vətəndaşa müraciətlərinə uyğun olaraq vakant iş yerlərinə göndərişlər verilib. Ayrı-ayrı şəxslərin peşə hazırlığına, özünüməşğulluq proqramına, reabilitasiya xidmətlərinə cəlb edilməsi, həmçinin reabilitasiya vasitələri ilə təmin edilməsi üçün qeydiyyat aparılıb.

Digər müraciətlər nazirliyin müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə yerindəcə araşdırılıb.

* * *

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədr müavinləri Zakir Quliyev Qusar, Rafiq Aslanov isə Quba rayonunda vətəndaşların müraciətlərini dinləyiblər.

Müraciətlər əsasən suvarma suyuna tələbatın ödənilməsi, yeni subartezian quyularının qazılması, sel sularına qarşı mühafizə bəndlərinin tikilməsi, suvarma kanallarının beton üzlüyə alınması və digər məsələlərlə bağlı olub.

Qəbula gələn hər bir vətəndaşın müraciəti sədr müavinləri tərəfindən fərdi qaydada dinlənilib, şikayətlərin qısa zamanda araşdırılaraq zəruri tədbirlərin görülməsi üçün müvafiq tapşırıqlar verilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerindəcə həll edilib.

* * *

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) idarə heyətinin sədri Saleh Məmmədov sentyabrın 20-də Sabirabad rayonunda vətəndaşları qəbul edib.

Agentliyin İctimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Sabirabad rayonunda Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Sabirabad və Saatlı rayonlarından olan 20-dən çox vətəndaşın müraciət və şikayətlərinə baxılıb.

İmişli rayon Heydər Əliyev Mərkəzində keçirilən qəbul zamanı İmişli rayonundan olan 15-dən çox vətəndaşın müraciətinə baxılıb.

Qəbul zamanı müraciətlər əsasən kəndlərarası avtomobil yollarının təmir-bərpası və yenidən qurulması, işə qəbul və digər məsələlərlə bağlı olub. Qəbulda hər bir vətəndaşın müraciəti dinlənilərək şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

* * *

Sentyabrın 20-də Dövlət İmtahan Mərkəzi (DİM) Direktorlar Şurasının sədr müavini Namiq Babayev şəhər və rayonlarda vətəndaşların mərkəzi icra hakimiyyəti və digər qurumların rəhbər şəxsləri tərəfindən qəbulu cədvəlinə uyğun olaraq, Hacıqabulda vətəndaşları qəbul edib.

DİM-dən bildirilib ki, qəbulda Hacıqabul, Şirvan, Saatlı, Sabirabad rayonlarının sakinləri və bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak ediblər.

Görüşdə əsasən ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri və digər məsələlərlə əlaqədar vətəndaşlar tərəfindən müraciətlər edilib.

***AZƏRTAC***

# Şöhrətin sevinci, yaşın kədəri...



## Ömür səhifələri

**... Qaranlıq yoldan keçir bu işıqlı dünyaya gəlişimiz. Elə o andan da açılır qarşımızda ömrümüzün zülmətdən aydınlığa gedən yolu. Həyatın bəzən hamar, bəzən kələ-kötür cığırları ilə başlayırıq hər gün bu yolu getməyə. Oluruq öz yolumuzun yorulmaz yolçusu...**

**Əvvəl iməkləyə-iməkləyə, sonra addım-addım irəliləyirik həyat yollarının dolanbaclarında. Bəzən daralır ömür yolları - addım atsan keçməyə, geri qayıtsan çıxmağa yer olmur. Bəzən də ümman qədər geniş üfüqlər açılır qarşımızda...**

**Bəzən büdrəyib yarı yolda dayanırıq, bəzən qarşımıza qoyduğumuz hədəflərə çatırıq. Bəzən də heç gözləmədiyimiz zirvələrə yüksəlirik...**

**Bir də onda başımızı qaldırırıq ki, yolun yarıdan çoxunu qət eləmişik. Bax onda başlayırıq geriyə, ötənlərə boylanıb, keçən günlərin xiffətini çəkməyə, özümüzə hesabat verməyə...**

**O da kənddən açılan cığırla genişlənib, şaxələnən həyat yolunun 60-cı döngəsini keçir. Və ömrün dolaylarına, qazandığı uğurlara, gördüyü işlərə, xidmətlərə nəzər saldıqca bu yolu hədər getmədiyinə bir daha əmin olur. Deməli, bu yolda çəkilən bütün əziyyətlərə, çətinliklərə dəyərmiş...**

**Milli Məclisin deputatı, filologiya elmləri doktoru, professor, akademik, Əməkdar elm xadimi, Azərbaycanda Atatürk Mərkəzinin direktoru Nizami Cəfərovun elmə fəda etdiyi həyatını “Ömür səhifələri”ndə vərəqləyəcəyik.**



### “Koroğlu” dastanını 5 yaşında oxuyan uşaq...

Həyat öz sərt üzünü hələ o, dünyaya gəlməmişdən öncə göstərmişdi ailəsinə. İkinci Dünya müharibəsində bir qolunu itirib geri qayıtdıqdan 4 il sonra babasını ailəsilə birgə doğma vətəni Vedidən deportasiya edirlər. Əziz kişi “Vedinin yanı dağlar”dan Salyanın ilan mələyən çöllərinə sürülür, oradan da Qazaxın (indiki Ağstafa) Zəlimxan kəndinə pənah gətirir. Burada özünə yeni ev-eşik, iş qurub, başlayır külfətini dolandırmağa, yetkinlik yaşına çatmış balalarına təhsil verməyə. Baxmayaraq ki, özü o vaxt Şura hökumətinin kitabını oxumaqdan imtina etmişdi... Səhv elədiyini gec də olsa anlayan, yeni hökumətin düşmənlərinin qoparağının götürüldüyünü görən Əziz kişi əvvəlki qərarını dəyişib, övladlarını oxumağa məcbur edir. İki oğlu M.C.Bağırov adına Qazax İkiillik Müəllimləri İnstitutunu qurtardıqdan sonra Pedaqoji İnstitutda qiyabi təhsil ala-ala İsmayıllı rayonunun dağ kəndlərində Azərbaycan dili və ədəbiyyat fənnini tədris edirlər.

Qazaxda günü-güzəranı nə qədər yaxşı olsa da, elə hey vətən həsrəti çəkərdi Əziz kişi. Hərdən eyvandakı taxtın üstündə oturub Vedidə keçirdiyi günləri, dağları, meşələri, bulaqları yadına salıb, pəsdən nə isə oxuyardı. Ya da həyətdə oturub dağlara tərəf baxar, Vedinin dağlarından, doğma yurdunda keçirdiyi xoş günlərindən danışardı övladlarına, nəvələrinə... Bəlkə də elə onun danışdığı maraqlı əhvalatlardan, nisgilli söhbətlərdən yaranmışdı oğullarının ana dili, ədəbiyyata olan böyük sevgisi. Qulu xüsusilə seçilirdi. Gözəl şeirlər yazırdı... “Koroğlu” dastanını, Molla Pənah Vaqifi, Aşıq Ələsgəri dərindən bilirdi. Kiyevdə əsgərlikdə olanda evə şeirlə məktublar yazardı... Onun bu istedadı və ana dili,



ədəbiyyata olan sevgisi də böyük oğluna keçir. Dahi şairimiz Nizami Gəncəvinin şərəfinə adlandırdığı Nizamisinə...

O vaxt yaşı az olsa da, atasıyla bağlı xatirə ömrün bu çağında belə yaddaşından silinməyib Nizami Cəfərovun: “Atam əlifbanı mənə beş yaşımda öyrətdi. “Koroğlu” kitabının 50-ci illər nəşrini oxuda-oxuda... Əvvəl bir qolun məzmununu danışırdı, şeirləri əzbər deyirdi, sonra həmin qolu oxudurdu. Mən bilirdim ki, bu səhifədən o səhifəyə qədər nə yazılıb, ancaq hərflər tez-tez yadımdan çıxdığına görə konkret olaraq nəyin harada yazıldığını çaşdırırdım... Bir dəfə anam gəldi ki, hələ tikilib qurtarmamış təzə evimizin kölgəsinə kilim sərib atamla oturmuşuq, ağır işdən sonra mən “Koroğlu ilə Kürdoğlunun qolu”nu oxuyuram; o yerdəyik ki, Kürdoğlu Koroğlunu iki dəfə yıxıb, indi ata tanımadığı oğlunu məcbur edir ki, onunla üçüncü dəfə güləşsin... Gözümün yaşı kitabın səhifələrinə tökülürdü, ancaq davam eləyirdim. Anam əlindəki çaydanı yerə qoyub gülə-gülə “Sizə nə olub, niyə ağlaşırsınız?” deyəndə başımı qaldırıb gördüm ki, atam da əməllibaşlı kövrəlib. Və mən məzmundan mətnə, mətndən məzmuna rahat keçməyin inersiyasını “Koroğlu”dan və atamdan öyrəndim”.

Amma atalı bəxtəvər günləri çox çəkmir Nizaminin. 10 yaşı olanda atası haqq dünyasına qovuşur. Və ailənin dörd uşağı həyat yollarında atasız addımlamağa başlayır. Əsl kənd uşağı kimi yetişir: “Kənd uşağı nəinki şəhər, hətta şəhər tipli qəsəbə uşağından da fərqlənir. Ailənin məişəti, əkin əkməkdən mal-heyvan otarmağa qədər - kənd uşağının ayağı bir balaca yer tutanda “müqəddəs vəzifəsinə” çevrilir. Dəcəllik hamıda var. Amma kənd uşaqlarının dəcəlliyi daha məsum və xeyirlidir. Şəhər uşağının dəcəlliyi isə bir az fərqlidir. Şəhər uşağının dəcəlliyi ailə mühitindən kənara çıxır. Kənd uşağının dəcəlliyi isə ailə mühiti daxilində olur. Həm də nəzərə alaq ki, kənd özü də bir bütöv ailədir, hamı hamıyla qohum, dostdur. Və sən o dəcəlliyi ailədə edirsən. O dəcəlliyin çox ciddi hüdudu olur. Hər dəqiqə görünür, təhlil edilir. O dəcəllik qoçaqlıq kimi də qiymətləndirilir, tərbiyəsizlik kimi də! Bu ikisinin də arasında aydın fərq olduğuna görə onları ayırmaq o qədər də çətin deyil. Mən də bir yeniyetmə kənd mühitinin əxlaqi düşüncələri, həyat tərzi daxilində nə edə bilirdisə, edirdim. Məsələn, kənddə kiminsə bağından meyvə oğurlamaq qüsur hesab olu-



nur. Amma sovxoz bağından nə istəyirsən, oğurla - bu, qoçaqlıq sayılır. Bir uşağı tərifləyirdilər ki, sovxozun bağından filan qədər üzüm gətirib, “oğurlayıb” yox ha... Amma həmin şeyi kiminsə bağına tətbiq edə bilməzdin, sənə şərəf gətirməzdi. Sovxozun bağından meyvə gətirə bilməyən yeniyetmə isə qabiliyyətsiz hesab olunurdu. Tutaq ki, qoruqçunu aldada bilməyib, bağa girəndə tutulub, gətirdiyini yolda salıb itirirdisə, demək, onun qabiliyyəti yox idi. Özü də maraqlı cəhət o idi ki, sovxozu idarə edənlər də kəndin adamı idilər. Amma müəyyən həddə qədər göz yumurdular. Hər halda o da kəndin bir xüsusiyyəti idi. Baxmayaraq ki, sovxoz dövlət müəssisəsi idi, oradan dövlətin malını oğurlamaq qəbul olunmuşdu. Çünki dövlət cəmiyyəti, insanları lazımi qədər təmin edə bilmirdi. Yerli idarəçilər də bunu bilirdilər və güzəştə gedirdilər”.

### Məktəbli şair, jurnalist

Amma bu dəcəlliklər dərs oxumasına mane olmurdu Nizaminin. Özü də sinfin əlaçılarından idi. Ana dili, ədəbiyyat və tarix isə onun üçün bütün fənlərdən irəli və əziz sayılırdı: “Mənim üçün qalan bütün elmlər bu üç fənnə tabe idi. Başa düşürdüm ki, yaxşı riyaziyyat duyumu olmadan heç bir elmdə, xüsusilə də ədəbiyyat, tarix kimi dağınıq elmlərdə harmoniya yaratmaq mümkün deyil. Bizim mütəxəssislər çox vaxt bundan əziyyət çəkirlər. Çoxlu faktları bilirlər, amma sistem yoxdur. Bunun üçün də riyazi təfəkkür lazımdır... Nə isə, çox yaxşı müəllimlərimiz vardı. Mən heç bilmirdim onlar öz həyatlarını, məişətlərini düşünürlər, ya yox. Yəni belə bir təsəvvür yaranırdı ki, onlar bu dünyaya yalnız müəllim olmaq üçün gəliblər, onların missiyası odur. Hətta bir çoxunu indi də xatırlayıram və yadıma düşür ki, onlar evlərində də, kənddə də müəllim idilər. Yəni işlərinə vəzifə kimi yox, həyat tərzi kimi baxırdılar. Ümumiyyətlə, Qazaxda elmə, təhsilə xüsusi hörmət vardı. Müxtəlif olimpiadalar keçirilirdi. O olimpiadalarda qalib gələnlər rayonda tanınırdılar. Bir də ən böyük “bəlamız” ədəbiyyat, daha doğrusu, poeziya idi. Vaqif Səmədoğlu demiş, Qazaxda şeir yaza bilməyənə birtəhər baxırdılar. Hər halda hesab edirəm ki, yeniyetməliyində şeir yazmayan, şairlik təxəyyülü olmayan adamdan gələcəkdə heç nə çıxmır”.



Elə ona da bu istedaddan pay düşür. Yeniyetməlik çağlarında müxtəlif şeirlər yazmağa başlayır. Amma tək şeirlə yetinmir. Məqalələr, dram əsərləri qələmə alır. Hətta tələbəlik illərində roman yazmağı da fikrindən keçirir. Lakin sonradan “məndən şair olmaz” deyib bu yaradıcılıq eşqini içində boğur... Bu günün özündə də o illərdə yazdığı şeirləri mümkün qədər unutmağa çalışır, heç yada salmaq istəmir...

Məktəbin son siniflərində oxuyanda isə həyat yolunda qarşısına qoyduğu ən böyük hədəf jurnalist olmaq idi. Amma tale özü müəyyənləşdirəcəkdi onun həyat yolunu: “İndiyə qədər də jurnalistika, publisistika mənimlədir. Jurnalistikaya olan həvəs məndə bədii yaradıcılığa olan sevgini aradan qaldırdı. Həmin illərdə jurnalistika hər şey demək idi. Həm bədii yaradıcı adam, həm hüquqşünas... O dövrdə demokratik düşüncənin daşıyıcıları jurnalistlər idi. Bizim rayona, kəndə jurnalistlər gəlirdilər. Görürdüm dövlət adamlarından, bizə dərs deyən müəllimlərdən, adi insanlardan da demokratik, dərin, miqyaslı düşünürlər. Həm də müstəqil idilər. Mənə xoş gəlirdi ki, jurnalist hansısa məmuru tənqid edə, qüsurlarını göstərə bilə. Bu, mənə qəhrəmanlıq kimi görünürdü. Yuxarı siniflərdə oxuyanda öyrəndim ki, jurnalistika fakültəsinə daxil olmaq üçün qəzetdə məqalələrin çap olunmalıdır. Ona görə də Qazaxın rayon qəzetində, “Azərbaycan pioneri” qəzetində, “Pioner” jurnalında xeyli məqalələrim çıxdı. Amma təəssüf ki, arzum həyata keçmədi. O vaxt jurnalistika fakültəsinə sənəd qəbulu məktəbdə dərslər bitməmiş başlayırdı. Mən də Bakıya birinci dəfə onda gəldim. Lakin sənədlərimi götürmədilər, çünki 2 il iş stajı lazım idi. Dedim bir halda ki, bura götürmürlər, sənədlərimi verəcəm hüquq fakültəsinə. Alınmadı. Sonra tarix fakültəsini seçdim. O da olmadı. Hər yerdə iki il iş stajı tələb olunurdu. Mən də universitetin geniş idman zalında yuxarısında “Filologiya fakültəsi” yazılmış guşəyə yaxınlaşdım. Sənədlərimi qəbul elədilər. Qəbul imtahanalarını da pis vermədim. Birinci yazılı imtahandan “5” aldım. Qalanlarından “4”. Təəccüblənirdim ki, əgər bütün suallara doğru cavab verirəmsə, niyə “əla” yazmırlar? Sən demə, müəllimlər “yaxşı” yazırıq deyib, mənim münasibətimi gözləyəndə etiraz etməli, komissiya sədrinin gəlməsini tələb etməliymişəm. Universitet müəllimlərini ömründə birinci dəfə görən, onların hər birinə dahi kimi baxan kənd uşağı bunu hardan biləydi axı?”

### Kənd uşağının şəhər həyatı

Beləcə, Azərbaycan Dövlət Universitetinin (indi BDU) Filologiya fakültəsinə daxil olur. Və kənd uşağının Bakıda, şəhər mühitində adət etmədiyi, adət edə biləcəyini də güman etmədiyi yeni bir həyat yolu başlayır. Əvvəl-əvvəl böyüyüb boya-başa çatdığı kəndi üçün darıxır, qəribsəyir, oranın saf mühitinə can atır. Amma zamanın üzü soyuq olurmuş. Təhsil aldığı illərdə şəhər mühitinə elə alışır ki, daha geri qayıtmağa da yol qalmır...

Birinci il kirayədə qalır. Növbəti il güc-bəla ilə universitetin yataqxanasında yer ala bilir. Yataqxanada yer almaq



əzabı isə hər il təkrarlanır. İmtahanları kifayət qədər uğurla verib kəndə qayıtdıqdan bir az sonra yataqxanada yer ala bilib-bilməyəcəyini daha çox düşünürdü. Çünki orderi birillik verirdilər. Məişət qayğılarını isə birtəhər yola verir, bu barədə heç düşünməməyə çalışırdı. Aclıq da olurdu, maddi, mənəvi çətinlik də, müəyyən gərginliklər də... Ancaq oxuduğu romanlardan da bilirdi ki, bütün bu çətinliklər keçicidir, sadəcə dözmək, mübarizə aparmaq, həyatda layiq olduğun yeri tutmaq lazımdır. O da həmin yerə doğru sürətlə irəliləyirdi... Savadı, bacarığı, çalışqanlığı ilə...

Universitetin elə ilk günlərindən adını eşidib, özünü görmədiyi Abbas Zamanov, Mir Cəlal, Vaqif Vəliyev, Ağamusa Axundov kimi görkəmli müəllim-professorlardan dərs almağa başlayır: “Təbii ki, onların içində Mir Cəlalı daha yaxşı tanıyırdıq. Onun bədii əsərlərinin çoxunu, elmi əsərlərinin isə bir hissəsini oxumuşdum. “Bir gəncin manifesti”ni bilməyən yox idi. Bizə dərs deyəndə artıq ahıllaşmışdı, bir cümləni demək üçün xeyli fikirləşir, ancaq elə cümlə deyirdi ki, saatlarla fikirləşib o səviyyədə demək çətin idi. Tələbələrə kurs işi mövzuları paylamışdı - hər dərsin birinci, ya ikinci hissəsində bir-iki nəfəri qaldırıb soruşurdu ki, “sənin əsərinin mövzusu nədir?” Hamının üzündə təbəssüm əmələ gəlirdi, belə böyük yazıçı-ədəbiyyatşünasın bizim cızmaqaralarımıza “əsər” deməsi, əlbəttə, qəribə idi. Universitet dilçilərinin önündə isə yalnız tarixi xidmətlərinə görə deyil, intellektinə, müəllimliyinə, milliliyinə görə Muxtar Hüseynzadə gedirdi. Bizim demək olar, bütün dilçi müəllimlərimizin müəllimi olmuşdu. Mən xoşbəxtəm ki, həm orta məktəbdə, həm də xüsusilə universitetdə çox böyük dilçi müəllimlərdən dərs almışam; onların yalnız bəzilərinin və mənim üçün doğma olanların adlarını çəkmək kifayətdir ki, qəziyyə məlum olsun: Muxtar Hüseynzadə, Əlövsət Abdullayev, Nəsir Məmmədov, Ağamusa Axundov, Yusif Seyidov, Fərhad Zeynalov, Tofiq Hacıyev, Abdulla Vəliyev, Musa Adilov, Samət Əlizadə, Zinyət Əlizadə, Aydın Məmmədov, Kamil Vəliyev, Firudin Cəlilov... Və bir də ona görə xoşbəxtəm ki, bu böyük dilçi-müəllimlər nə yazdılarsa, hamısını oxudum, nə dedilərsə, hamısını anlamağa çalışdım. Həm universitetdə təhsil aldığım illərdə, həm də sonralar onların hər birindən qayğı, kömək, hörmət və müdafiə gördüm”.



Minnətdarlıqla xatırladığı müəllimlər arasında Tofiq Hacıyevlə Əlövsət Abdullayevin adını xüsusi hörmətlə çəkir Nizami Cəfərov. Universiteti fərqlənmə diplomu ilə başa vursa da, aspiranturaya qəbul üçün 2 illik iş stajı tələb olunduğundan rektor sənədinə qol çəkmir, 2 ildən sonra gəlməyi tövsiyə edir. İlk baxışdan xırda məsələdir. Amma bu 2 illik zaman itkisi elmi tədqiqat şövqü ilə alışan istedadlı bir gəncin bütün həyatını, taleyini dəyişə bilərdi. Və rektorluqdan kor-peşman Filologiya fakültəsinə qayıdanda dəhlizdə təsadüfən Əlövsət Abdullayevlə qarşılaşır: “Professor məyusluğumu görüb vəziyyəti öyrənəndə “hələ bir dayan görək. Arxamca gəl”, - deyib qabağa düşdü. Bir tələbənin gələcək karyerası qarşısında dağ kimi dayanmış imza problemini şəxsi nüfuzunun gücü ilə ikicə dəqiqəyə həll edərək, yolumu açdı. Tərcümeyi-halımı vərəqlədikcə görürəm ki, çox adama borcluyam. Amma bəlkə də ən çox Əlövsət Abdullayevə borcluyam ki, hara gedəcəyimi bilmədiyim bir vaxtda qabağa düşdü. Mənə “arxamca gəl!” dedi. Ən müstəqil həyat yolçusunun da hansısa məqamda belə sözə və hərəkətə ehtiyacı olur. Bir müddətdən sonra yenə dəhlizdə rastlaşdıq. Dedi, “bizim kafedraya bir aspirant yeri veriblər, ancaq qiyabidir. Tofiq Hacıyev xahiş elədi ki, onu sənin üçün saxlayaq, yazdan payıza keçirək”. Çox sevindim. Minnətdarlığımı bildirdim. Və mən aspiranturaya girdim. İndi qalırdı qiyabidən əyaniyə keçmək. Bunun üçünsə Əlövsət müəllim kafedra müdiri kimi arayış verməli idi ki, aspiranturanı qurtardıqdan sonra məni dərslə təmin etmək imkanı olacaq. İmkan isə yox idi. Ancaq o, belə bir arayışı verdi. Mən isə söz verdim ki, gələcəkdə ondan dərs istəməyəcəm. Azərbaycan dilçiliyi kafedrasının əyani aspirantı olduqdan sonra işlərim qaydaya düşdü”.

### 32 yaşlı filologiya elmləri doktoru

Vaxtından əvvəl namizədlik dissertasiyası müdafiə edib, aspiranturanı bitirəndən sonra gənc alimə universitetdə işləmək üçün yer tapılmır. Ona görə də elmi rəhbəri professor Tofiq Hacıyevin məsləhəti və köməyi ilə Elmlər Akademiyasının Dilçilik İnstitutunda kiçik elmi işçi kimi müvəqqəti işə düzəlir. Sonra ailə qurur. Və “Ədəbiyyat və incəsənət” qəzeti ilə tələbəlik illərində başladığı, aspirantlıq dövründə isə davam etdirdiyi əməkdaşlığı akademiyada çalışdığı ilk aylardan daha da genişləndirir: “Qəzetin ovaxtkı baş redaktoru, böyük şair Nəriman Həsənzadənin bir çoxları kimi, mənə də hüdudsuz qayğıkeşliyi olmasaydı, yəqin ki, bu əməkdaşlıqdan söhbət belə gedə bilməzdi. O məni tələbə-



likdən tanıyırdı. Əsasən şeir kitablarına yazdığım resenziyaları məmnuniyyətlə dərc edir, hələ o qədər də mükəmməl olmayan mülahizələrimi tərifləyirdi. Adımın altında yazılan “ADU-nun tələbəsi”, “ADU-nun aspirantı”, “filologiya elmləri namizədi” ifadələri bir-birini əvəzlədikcə Nəriman müəllim nə qədər ürəkdən sevinirdisə, yazılarıma tələbkarlığı da bir o qədər artırdı. Mən də bu tələbkarlığın səviyyəsinə qalxmaq, qayğıya layiq olmaq istəyirdim. Xüsusi qayğının bir təzahürü də onda idi ki, Nəriman müəllim mənim maddi vəziyyətimi nəzərə alıb məqalələrimi əlyazmasında qəbul edirdi. 1987-ci ilin yayında Qazaxda kəndimizdə oturub akademiyadakı işimin artıq bir-iki aya bitəcəyi, harada nə iş tapacağım barədə düşünürdüm ki, Nəriman Həsənzadədən teleqram gəldi. Məni qəzetin tənqid və ədəbiyyatşünaslıq şöbəsinə müdir təyin edirdi. Kənddən necə çıxdığım, Bakıya necə gəldiyim yadımda deyil, onda gördüm ki, redaksiyada, baş redaktorun kabinetindəyəm. Və dərhal işə başladım. Sonralar öyrəndim ki, mənim bu təyinatım Nəriman müəllimə o qədər də asan başa gəlməyibmiş... Qəzetdə işlədiyim 1987-1991-ci illəri böyük bir məktəb hesab edirəm: qaynar yaradıcılıq mühiti, ədəbi mübahisələr, yerli-yersiz çəkişmələr... və bütün bunların Azərbaycan tarixinin çox mürəkkəb bir dövründə baş verməsi izsiz qala bilməzdi. Baş redaktor hər cür şərait yaratmışdı ki, qəzetdə milli mənlik, azadlıq, müstəqillik təbliğatı aparılsın, ölkənin Şimalı ilə Cənubu arasında əlaqələr genişlənsin. Elə ona görə də qəzetin bir neçə səhifəsi ərəb əlifbası ilə çıxırdı ki, Cənubda da yayıla bilsin. Türk dünyasının birliyi, türkçülük ideyaları əsas mövzulardan idi. Erməni məkri barədə ilk sanballı yazılar dərc olunmuşdu... Nəriman Həsənzadə baş redaktorluqdan çıxdıqdan sonra onun yaratdığı sağlam işgüzar mühit yerində qalsa da, bir az qəribsədim. Və yeni baş redaktor, ilhamlı şair Cabir Novruzun təkidinə baxmayaraq, qəzetdən ayrıldım”.

Elə həmin ilin dekabrında Nizami Cəfərov doktorluq dissertasiyanı müdafiə edir. Və 32 yaşında filologiya elmləri doktoru dərəcəsi əldə etmiş ən gənc alimlərdən olur. İllərdir arzusunda olduğu peşəyə yiyələnir - bitirdiyi universitetin Türkologiya kafedrasında müəllimliyə başlayır. 2 il sonra həmin kafedranın professoru seçilir. Sonra Filologiya fakültəsinin dekanı, Ümumi Dilçilik kafedrasının müdiri olur. Dekan işlədiyi 7 ildə fakültənin elmi-tədris səviyyəsinin yüksəlməsinə, mənəvi mühitin daha da



sağlamlaşmasına, demokratik ovqat yaranmasına çalışır.

“Müəllimlik tək istedad yox, həm də çox böyük zəhmət tələb edir. O ada layiq olmaq üçün də o zəhməti çəkmək lazımdır” deyən Nizami Cəfərov istedadı olan hər kəsə kömək edir. Bir vaxtlar özünün də qarşılaşdığı çətinliklərlə üzləşən onlarla gəncə “Arxamca gəl” deyib qabağa düşən həyat bələdçisi olur. Bu gənclərin yollarındakı maneələri şəxsi nüfuzunun gücü ilə aradan qaldırır, onları gələcəyə doğru uğurlayır. İndiyə kimi onun elmi rəhbərliyi altında 50-yə qədər elmlər namizədi, elmlər doktoru yetişib. Ən sevindirici hal isə odur ki, özü atasının yolunu davam etdirdiyi kimi, qızı Aysel də onun yolunu davam etdirir. AMEA-nın Dilçilik İnstitutunda işləyir, filologiya üzrə fəlsəfə doktorudur. Onun da elmi rəhbəri atasının elmi rəhbəri olmuş Tofiq Hacıyev idi. Oğlu Altay isə Milli Məclisdə təmir-tikinti sektorunda işləyir, dövlət müşaviridir.

### “Elmi sən seçirsən, amma deputatlığa səni seçirlər”

Nizami Cəfərov 19 ildir həm də Milli Məclisin deputatıdır. Əslində parlamentdə təmsil olunmaq heç ağlına da gəlməzdi. Amma 2000-ci il seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən Ağstafadan onun da adı namizədlər siyahısına salınır: “O vaxt Xalq yazıçısı Anar Milli Məclisdə Mədəniyyət Komissiyasının sədri idi. Məni yanına çağırdı və təklif etdi ki, “Azərbaycan dilinin qorunması haqqında” qanun layihəsi hazırlayaq, işçi qrupunun başçısı da sən ol. İş elə gətirdi ki, layihənin müzakirəsi başa çatmamış mən də Ağstafadan YAP-ın namizədi kimi parlamentə seçildim. İşçi qrupunun rəhbəri olaraq başladığım bu işi millət vəkili olaraq başa çatdırdım. Düzdür, onda millət vəkili kimi tam təcrübəsiz idim. Amma müstəqilliyin ilk illərindən başlayaraq Azərbaycanın bütün ziyalıları bir siyasi məktəb keçmişdilər. Həm dövrün hadisələrini təhlil edir, həm çıxış yolları axtarırdıq. Ulu Öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra elə bir şərait yaradıldı ki, az-çox xalqın taleyilə maraqlanan, ictimai-siyasi proseslərdən başı çıxan, intellekti olan insanlar dövlət işlərinə cəlb olundu. Adi müqayisə aparım: 90-cı illərin əvvəllərindəki seçkilərdə parlamentə çox vaxt sadəcə ictimai siyasi prosesdə, “Meydan hərəkatı”nda ad qazananlar seçilirdilər. Mən onların istedadına, şəxsiyyətinə şübhə ilə yanaşmıram. Sadəcə tipologiyanı deyirəm. Amma Heydər Əliyev hakimiyyətə gələndən sonra Milli Məclisdə karyerasını sosial proseslərdə təsadüflərlə, yaxud hansısa vəzifələrdə qazanmış insanlar yox, daha çox elm, mədəniyyət sahibləri təmsil olundu. Məni də o yerə elm adamı kimi məsləhət bildilər. O vaxtdan bəri parlamentdəyəm. Amma indi millət vəkili olmaq əvvəlki dövrdəkindən daha asandı. Çünki Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində dövlət inkişaf edib, dövlət idarəçiliyi möhkəmdir, qanunçuluq güclüdür. Deputatın vəkillik etməsi üçün hər cür şərait var. Amma əvvəlki illərdə müəyyən dağınıqlıq vardı. İndi mənim üçün ən çox maraq doğuran şey ölkənin vətəndaşının özünü ikinci, üçüncü dərəcəli hiss etməməsidir. Prezident var-gücü ilə çalışdı ki, bütün səviyyələrdə sosial-psixoloji kompleks aradan qalxsın və qalxdı. Dünyanın az mədəniyyət mərkəzləri var ki, orda olmayım. Mən xaricdə mövqeyimizin nə qədər güclü olduğunu görürəm. Bu, inqilabi nailiyyətdir”.

Nizami müəllim deyir ki, deputatlıq, alimlik, müəllimlik artıq onun üçün bir-birindən ayrılmaz sahələrdir. Amma bir məsələni həmişə nəzərə almaq lazımdır - elmi sən seçirsən, deputatlığa isə səni seçirlər: “Açıq deyək ki, əgər mən parlamentdə təmsil olunmasaydım, miqyasım bu qədər olmazdı. Çünki mən texniki yox, humanitar elmlə məşğulam. Dilçilik, ədəbiyyatşünaslıq elə bir sahədir ki, mütləq cəmiyyətlə bir yerdə olmalı, onu hiss eləməli, görməlisən. Cəmiyyətin nə düşündüyü barədə səndə aydın təsəvvür olmalıdır. Ona görə də millət vəkilliyi mənə əksinə, normal mütəxəssis olmağa kömək etdi. Amma ola bilər səni heç deputat seçməsinlər. Bunun üçün də qətiyyən gərginləşmək lazım deyil. Sadəcə elmdən aldığın və deputatlıqdan götürdüyün miqyası davam etdirmək lazımdır. Çünki onların hər ikisindən də yuxarıda sənin xalqının maraqları dayanır. Mən 30-40 yaşına qədər “xalqın maraqlarına xidmət edirəm” missiyasını öz üzərimə götürə bilməzdim, böyük çıxardı. Amma artıq yaş 60-ı keçir, böyük təcrübə var. İndi də xalqın maraqlarına xidmət etməməyi boynundan atmaq məsuliyyətsizlik olardı”.

### 60 ilin yolçusu

Saat taxmağı sevmir Nizami Cəfərov. Bəlkə də zamanın necə ötüb getdiyini görmək istəmir... Bəlkə də ömrümüzdən qopan hər ana, hər dəqiqəyə şahidlik etmək istəmir. Bəlkə də... Amma zamanın necə keçdiyini saatsız da hiss edir: “Zaman, vaxt mənim üçün çox önəmlidir. Çalışıram hər saatımın qədrini bilim, dəqiqələrim hədər getməsin. Bəzən fikirləşirəm niyə bunu çatdırdım, onu yox. Niyə bunu elədim, o qaldı. Bəlkə də daha çox işlər görə bilərdim... Hər halda həyat yolumda taleyin də rolu var. Sənə taleyin üzü az-çox gülməsə, heç nə edə bilməzsən. Ona görə taleyə də minnətdar olmaq lazımdır”.

60 ildir yol gəlir Nizami Cəfərov. Çətinliklərin, sınaqların, uğurların bir-birini izlədiyi dolanbac həyat yolunu... Özü geriyə boylanıb keçdiyi o cığırlara, yollara baxanda 60 illik ömrünü Nəriman Həsənzadənin bircə bəndinə sığdırır:



*İllər zirvələrmiş bizdən ötəri,*
*Yollara gah isti, gah şaxta düşür.*
*Şöhrətin sevinci, yaşın kədəri*
*Tərs kimi, ikisi bir vaxta düşür.*

“Hesab edirəm ki, normal yaşanmış həyat adama lazım olan şöhrəti gətirir. Bu, şöhrətpərəstlik deyil. Necə ola bilər 60-70 il yaşayasan, bir hörmətin, şöhrətin olmaya! Onda o nə yaşamaqdı, kimə lazımdı? Amma şöhrət qazanmaqla yanaşı, yaş da gedir. Yaşın da getməyi odur ki, insan çox şeyləri itirir - cavanlığını, şuxluğunu, gənclik enerjisini... Görünür, həyat da budur - nəyisə qazanmaqdan ötrü nəyisə itirməli, sərf etməlisən. Ona təəssüf edərsən ki, itirə-itirə gələsən, amma heç nəyi qazanmayasan... Əsas odur, yaşadığın ömür hədər getməsin...”

*O da illərini fövtə verməyib. Həyat yolunda qarşısına qoyduğu məqsədlərə, hədəflərə doğru inamla irəliləyib... 60 ildir yolçusu olduğu bu yolun sonu isə görünmür... Qarşıda hələ keçilməmiş, qət edilməmiş uzun, incə bir yol var...*

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***

# Azərbaycanla Hindistan arasında iqtisadi əməkdaşlıq məsələləri müzakirə edilib

Azərbaycanla Hindistan arasındakı iqtisadi əlaqələrin daha da genişləndirilməsi üçün potensial imkanlar mövcuddur, ona görə də iki ölkənin sahibkarları daha sıx əməkdaşlıq etməlidirlər.

Hindistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bavitlunq Vanlalvavna ilə görüşdə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev tərəfindən səsləndirilən bu sözlər ətrafında fikir mübadiləsi aparılıb və qarşılıqlı faydalı təkliflər müzakirə edilib.

M.Musayev bu sahədə görüləcək işlərdə Azərbaycan Sahibkarlar Konfederasiyasının dəstək verməyə hazır olduğunu bildirib. Konfederasiya prezidentinin sözlərinə görə, Hindistan ölkəmizdən neft və neft məhsulları idxal edən ən böyük tərəfdaşlardan biridir. Eyni zamanda Hindistanda əczaçılıq, informatika texnologiyaları, səhiyyə və digər sahələrdə sürətlə inkişaf gedir. Azərbaycandakı investisiya mühiti, sahibkarlığa dövlət dəstəyi, aparılan islahatlar haqqında qonağa geniş məlumat verən M.Musayev Hindistan sahibkarlarını ölkəmizə investisiya yatırmağa dəvət edib: "Azərbaycan coğrafi baxımdan strateji bir məkanda yerləşir. Ölkəmizin müxtəlif regionlarında son illərdə sənaye parkları və sənaye məhəllələri yaradılmışdır. Hindistan tekstil, əczaçılıq sənayesi və digər sahələr üzrə həmin aqroparklara investisiya qoya bilər və bununla da böyük bazarlara daha asan çıxış əldə etmiş olar".



M.Musayev Hindistana planlaşdırılan səfəri ilə bağlı səfirə məlumat verərək, Azərbaycan Sahibkarlar Konfederasiyasının rəhbəri kimi sahibkar təşkilatlarının nümayəndələri ilə görüşmək, qarşılıqlı faydalı layihələrin həyata keçirilməsi üçün münbit şəraitin və investisiya mühitinin olduğunu bildirib.

Görüşdə Bavitlunq Vanlalvavna qeyd edib ki, hazırda hindistanlı sahibkarlar Azərbaycandakı investisiya imkanlarını araşdırırlar və bununla bağlı səfirliyə müraciət edilmişdir. Bu sorğulara dolğun cavab vermək və sərməyə üçün sahələrin cəlbediciliyi barədə bəzi sualları daha ətraflı cavablandırmaq üçün Azərbaycan Sahibkarlar Konfederasiyasının dəstək verməsini xahiş edən səfir əməkdaşlığı daha da genişləndirməyi təklif edib. Onun sözlərinə görə, bu ilin 6-8 noyabr tarixlərində Hindistanın Sənaye Korporasiyası Azərbaycana səfər edəcəkdir. "Nəzərdə tutulmuş bu səfər ikitərəfli əlaqələrin genişləndirilməsi üçün böyük imkanlar yaradacaqdır. Ona görə də Hindistan nümayəndə heyətinin Azərbaycan Sahibkarlar Konfederasiyasının üzvləri ilə görüşməsini vacib hesab edirik" deyə səfir vurğulayıb.

Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti səfirə təkliflərinə görə təşəkkürünü bildirərək, Hindistan investorlarını maraqlandıran məsələlərdə yardımçı olacaqlarını söyləyib. M.Musayev əməkdaşlığın daha səmərəli şəkildə qurulması üçün hər iki ölkədən daha fəal və bu sahədə maraqlı olan sahibkarlardan ibarət ikitərəfli Sahibkarlar Şurasının yaradılması imkanlarını da nəzərdən keçirməyi təklif edib.

Müzakirələrin sonunda bütün təkliflər üzrə Hindistanın Azərbaycandakı səfirliyinin və Azərbaycan Sahibkarlar Konfederasiyasının məsul əməkdaşlarına konkret tapşırıqlar verilmiş, iqtisadi əlaqələrin genişləndirilməsi üçün bütün imkanlardan maksimum istifadə olunması tapşırılmışdır.

***"Azərbaycan"***

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# "AzerGold" QSC Tacikistanın nümayəndə heyəti ilə görüşüb





Sentyabrın 20-də "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti və Tacikistan Respublikasının ölkəmizdə səfərdə olan nümayəndələri arasında görüş keçirilib.

"AzerGold" QSC-nin inzibati binasında baş tutan görüşdə QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov, QSC-nin İdarə Heyəti sədrinin müavinləri Oqtay Məmmədov və Xəyyam Fərzəliyev, həmçinin Geoloji kəşfiyyat, Strateji planlaşdırma və biznesin inkişafı şöbələrinin rəhbərləri, Tacikistanın Soqdiya vilayətinin sədri Racabboy Axmadzoda, Tacikistanın ölkəmizdəki səfiri Rustam Soli, Xucand şəhərinin sədri Maqruf Muxammadzoda, Guliston şəhərinin sədri Firdavs Şərifzoda, "Aprelevka" birgə müəssisəsinin baş direktoru Azizxon Boltuxonzoda və nümayəndə heyətinin digər üzvləri iştirak edib.

İlk öncə qonaqları salamlayan Z.İbrahimov "AzerGold" QSC-nin fəaliyyəti, görülən işlər və öndə duran vəzifələr haqda qısaca məlumat verib. R.Axmadzoda son illərdə Azərbaycanın bütün sahələrində olduğu kimi, dağ-mədən və hasilat sahəsindəki inkişafı da qeyd edərək "AzerGold" QSC-nin fəaliyyətini yüksək qiymətləndirib. Dünyanın ən iri gümüş yatağı hesab edilən Böyük Konimansur yatağı və Soqdiya vilayətində yerləşən digər zəngin yataqlar haqda söhbət açan R.Axmadzoda "AzerGold" QSC-nin nümayəndə heyətini Soqdiya vilayətinə səfər etməyə və bu yataqlarla əyani tanış olmağa dəvət edib.

Görüşün davamında dağ-mədən sahəsində tərəflər arasında mümkün əməkdaşlıq perspektivləri müzakirə edilib, bu istiqamətdə təcrübə mübadiləsinin vacibliyi vurğulanıb.

***"Azərbaycan"***

21 Sentyabr Beynəlxalq Sülh Günüdür

# Yüzillik müharibələr barışla sona çatsa da...

## Təcavüzkar Ermənistan isə 1994-cü ildən bugünədək BMT TŞ-nin qəbul etdiyi 4 qətnaməyə məhəl qoymur

Azadlıq, bərabərlik və ədalətlə yanaşı, sülh hər bir cəmiyyətin, ümumiyyətlə, bəşəriyyətin çox arzu etdiyi dəyərlərdəndir. Çox maraqlıdır, bütün gözəllikləri, maddi və mənəvi dəyərləri ilə yaşadığımız dünyanın qədrini lazımi səviyyədə bilirikmi görəsən? Sabit şəraitdə yaşamalı olan insanlar, çox təəssüf ki, bəzən haqsızlığın, amansızlığın, terrorun və müharibələrin qurbanlarına çevrilirlər. Bütün bunların qarşısının alınmasında isə sülhün rolu danılmazdır.

Ən kiçik ailə, məhəlli, regional münaqişələrdən tutmuş yüzillik müharibələrədək hər cür qarşıdurma yalnız sülhlə sona çatıb. Buna görə də sülh bütün vasitələrdən güclüdür. Sülhə nail olmaq isə, təbii ki, tərəflərin həqiqətləri düzgün dəyərləndirmələrindən çox asılıdır.

Sülh dinclik, əmin-amanlıq, qurub-yaratmaq, sosial, iqtisadi və mədəni inkişaf deməkdir. Sülhün carçıları isə gələcəyimiz olan uşaqlardır. Uşaqlar daim açıq səma altında azad, əmin-amanlıq şəraitində, atalı-analı yaşamaq arzusunda olublar.

Sülhün carçıları olan göyərçinlərin uşaqlar tərəfindən daha çox sevilməsi də bundan irəli gəlir. Lakin, çox təəssüf ki, hələ də bəşəriyyətin tam təhlükəsizliyi təmin olunmayıb. Ayrı-ayrı regionlarda, ümumilikdə isə dünyanın bir çox yerlərində münaqişələr davam etməkdə, torpaqlar qan çanağında boğulmaqda, günahsız insanlar, hətta, uşaqlar və gənclər odsaçan silahların qurbanlarına çevrilməkdədirlər.

Ona görə də dünya ölkələrinin yekdil qərarı ilə BMT 1981-ci il 21 sentyabrın Beynəlxalq Sülh Günü kimi qeyd olunması barədə qərar qəbul edib.

1999-cu ildə rejissor Ceremi Cilli insan cəmiyyətinin əsas problemləri və nisbətən təcili həll olunmalı məsələlər barəsində "Peace one day"i yaratmağa məcbur oldu. Əsas cəhd ondan ibarət idi ki, heç olmasa ildə bir gün bütün dünyada insan zorakılığının baş verməsinin qarşısı alınsın, ön cəbhələrdə silahlar sussun - atəşkəsə əməl edilsin.

21 sentyabr nəinki xalqlar arasında, həmçinin ailələrdə, məktəblərdə, ictimaiyyətdə münasibətlərin sağlamlaşmasına, köklü zorakılığa qarşı mübarizənin gücləndirilməsinə nail olmaq üçün bir fürsətdir. Onun əsas məqsədi 10 milyardlarla insanın sülh şəraitində, açıq səma altında təhlükəsiz yaşamasına ciddi ehtiyacı təbliğ etməkdir. Çünki yaşından, irqindən, milliyyətindən, dinindən və cinsindən asılı olmayaraq, sülh istəyən hər kəsin yardımına ehtiyac var.

Beynəlxalq Sülh Günü təsis edildiyi vaxtdan hər il BMT-nin Baş katibi dünya xalqlarına müraciət edir. İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin qəbul edilməsinin 60-cı ildönümü münasibətilə BMT-nin ozamankı baş katibi Pan Gi Munun müraciətində qeyd edildiyi kimi, hələ də dünyada bir çox insanların hüquqları xüsusilə silahlı münaqişələr zamanı və atəşkəs dövründə pozulmaqda davam edir: "Məhz buna görə də biz çalışmalıyıq ki, bəyannamədə qeyd olunan hüquqlar günümüzün reallığına çevrilsin. 21 Sentyabr Beynəlxalq Sülh Günüdür. Mən ümumdünya liderlərinə və bütün dünya əhalisinə səslənərək, münaqişə, yoxsulluq və aclığa qarşı, hamı üçün insan hüquqlarının təmin olunması istiqamətində qüvvələrin birləşdirilməsinə çağırıram".

Sülh naminə aparılan fəaliyyət həyati əhəmiyyət kəsb etsə də, təəssüflər olsun ki, heç də hər yerdə qorunmur, müdafiə edilmir, zorakılıqlar baş alıb gedir, milli münaqişələr daha da qloballaşır, fiziki coğrafiyası genişlənir.

Azərbaycanın zorla cəlb edildiyi münaqişəyə gəldikdə isə, beynəlxalq vasitəçilərin apardıqları sülh danışıqlarının səmərə verməməsi regionda təhlükəsizliyin təminatına əngəl yaratmaqdadır. Azərbaycan Prezidenti İlham Əliyevin istər beynəlxalq tribunalardan, istərsə də doğma yurd-yuvasını itirmiş bir milyondan artıq qaçqın və məcburi köçkünlə hər dəfə görüşündə səsləndirdiyi kimi, NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramına qoşulan respublikamız münaqişənin dinc vasitələrlə, beynəlxalq norma və prinsiplər əsasında, sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə təsdiqləyib. Lakin təcavüzkar Ermənistan tamamilə bunun əksini nümayiş etdirir. 1994-cü ildən münaqişə tərəfləri arasında atəşkəs rejimi elan olunsa da, buna birtərəfli qaydada əməl edilir. Ermənistan nəinki atəşkəsə əməl etmir, üstəlik, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin tələblərini kobud şəkildə pozur! Respublikamızda son illər Beynəlxalq Sülh Günü xüsusi olaraq qeyd edilməkdədir. Bu əlamətdar gün münasibətilə İsveçrə səfirliyinin Bakı Ofisi ilə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) və BMT-nin İctimai İnformasiya Departamenti daim birgə tədbirlər keçirmişlər.

Muzey Mərkəzində "Sülh naminə 1000 qadın" sərgisində nümayiş etdirilən "Yer kürəsinin 1000 sülhpərvər qadını" adlı şəbəkə çərçivəsində sülh mədəniyyətinin yaradılması sahəsində onların apardığı mühüm fəaliyyət barədə məlumat verilmişdir. "Sülh sənin, mənim, hamımız üçün" devizi altında təşkil olunmuş "dəyirmi masa"da isə istər hökumət, istərsə də QHT-lər və koalisiyalar, beynəlxalq təşkilatların təmsilçiləri bir araya gələrək qadınların sülh təhsili və tədqiqatları ilə bağlı qərar qəbul etmişlər.

Bu günün 20 illiyi ilə əlaqədar BMT Baş Məclisi 21 sentyabrı Beynəlxalq Sülh Günü olaraq dəyişməz bir tarix kimi təsdiq etmişdir. Baş Məclis belə qərara gəlmişdir ki, BMT-nin, ona üzv olan dövlətlərin və bütün bəşəriyyətin cəhdlərini mərkəzləşdirərək, sülh ideallarını inkişaf etdirməyə imkan verən və onların hər vəchlə sadiqliyini sübuta yetirən xüsusi bir vaxt təyin olunmalı idi ki, 21 sentyabr da məhz bu nöqteyi-nəzərdən seçilmişdir.

Yeri gəlmişkən onu da xatırladaq ki, bu günlə bağlı hətta beynəlxlaq mükafat da təsis edilib. BMT-nin 60 illik yubileyinə həsr olunmuş "Qızıl Göyərçin" beynəlxalq sülh mükafatı 2008-ci ildən etibarən inteqrasiya, sülh, insan hüquqları bərabərliyi, sosial tərəqqi və azadlıq şəraitində yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması uğrunda mübarizə aparan şəxslərə təqdim edilir. Bu ali mükafata dünyanın tanınmış simalarından olan Roma papası XVI Benedikt, Dalay Lama, Nobel mükafatları laureatları Desmond Tutu və Lex Valensa, Çexiyanın sabiq prezidenti Vatslav Havel, Almaniyanın keçmiş dövlət başçısı Roman Hersoq, Bundestaqın spikeri Lammert, təhsil naziri xanım Annete Şavan, həmin ölkənin ailə naziri xanım dr. Kristina Şröder və digər görkəmli şəxsiyyətlər layiq görülmüşlər.

Sülh daima poeziyamızın da əsas mövzusu olub. İnsanları anaların dili ilə bəşəriyyətin xilası olan sülhə səsləyən şair Novruz Gəncəlinin yazdığı, Xalq artisti Zeynəb Xanlarovanın böyük şövqlə oxuduğu kimi:

*Bəs deyilmi, ey insanlar,*
*Töküldü qan, axdı qan?!*
*Sülhə gəlin, ey insanlar,*
*Yoxsa dünya məhv olar.*
*Silahları yandırın,*
*Ərşə qalxsın tüstüsü.*
*Hər obada, hər eldə*
*Qanad açsın "sülh" sözü!*

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***



**Bədii gimnastika üzrə dünya çempionatı**



# On altı gimnast "Tokio 2020" Oyunlarına lisenziyanı təmin edib











Sentyabrın 20-də rusiyalı Dina Averina Bakıda keçirilən bədii gimnastika üzrə 37-ci dünya çempionatının fərdi çoxnövçülük yarışlarının qalibi olub.

AZƏRTAC xəbər verir ki, "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan çempionatın beşinci günündə 24 gimnast çoxnövçülük yarışlarının finalında mübarizə aparıb.

Yarışda Rusiya, Ukrayna, İsrail, Bolqarıstan, ABŞ, Belarus, İtaliya, Yaponiya 2, Azərbaycan, Özbəkistan, Macarıstan, İspaniya, Rumıniya, Fransa, Gürcüstan və Sloveniya 1 gimnastla təmsil olunub. Çempionatda fərdi proqramda çoxnövçülük üzrə ilk 16-lıqda yer alan gimnastlar (bir ölkədən maksimum 2 gimnast olmaqla) "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziya əldə ediblər.

Rusiyalı əkiz bacılar Dina və Arina Averinalar dünya çempionatının ilk iki pilləsində qərarlaşıblar. D.Averina 91,400 xalla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb və üçqat dünya çempionu adını qazanıb. Onun bacısı 91,100 xalla gümüş medala sahib olub. İsrailli gimnast Linoy Aşram isə 89,700 xalla çempionatı üçüncü pillədə başa vurub.

Azərbaycan gimnastı Zöhrə Ağamirova 78,725 xalla 16-cı olub və "Tokio 2020"yə vəsiqəni təmin edib.

Olimpiadaya lisenziya qazanan idmançılar arasında Dina və Arina Averinalar, israilli gimnastlar Linoy Aşram, Nikol Zelikman, Bolqarıstan təmsilçiləri Boriana Kaleyn, Katrin Taseva, ukraynalı Vlada Nikolçenko, Kristina Poqraniçnaya, İtaliya atletləri Aleksandra Aqiurqiuculese, Milena Baldassarri, ABŞ gimnastları Evita Qriskenas, Laura Zenq, yaponiyalı Kaho Minaqava, Belarus idmançıları Anastasiya Salos, Katarina Halkina və təmsilçimiz Z.Ağamirova yer alıblar.

Yarışlar başa çatdıqdan sonra mükafatlandırma mərasimi təşkil olunub. Həmçinin yarışın tərəfdaşı olan "Longines" şirkətinin təsis etdiyi "Prize of Elegance" mükafatının qalibi müəyyənləşib. Belə ki, mükafat ABŞ idmançısı Laura Zenqə təqdim olunub.

Altmış bir ölkədən 300-dən çox idmançının mübarizə apardığı çempionatın medalları Beynəlxalq Gimnastika Federasiyasının loqosu formasında hazırlanıb.












## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi gözdən əlillər üçün tikintisi nəzərdə tutulan 12 mərtəbəli 288 mənzilli yaşayış binasının layihələndirilməsi işlərinin satın alınması üzrə keçirilən

### *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 200 (iki yüz) manat**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/h: AZ80CTRE00000000000002138501**

**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *lisenziya.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 21.10.2019-cu il saat 17:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 24.10.2019-cu il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 24.10.2019-cu il saat 15:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.**

***Tender komissiyası***

## "Bakı Metropoliteni" QSC
## Metro vaqonlarının maşinist kabinəsi üçün kondisionerlərin satın alınması üzrə

### *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/- dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

LOT-1. Metro vaqonlarının maşinist kabinəsi üçün kondisionerlərin satın alınması

**İştirak haqqı - 100 manat**

**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN) :**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **16 oktyabr 2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **24 oktyabr 2019-cu il saat 16:00-a** qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər.

İddiaçıların təklifləri **25 oktyabr 2019-cu il saat 16:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş
## Konfrans tədbirlərinin keçirilməsi üçün hazırlıqların satın alınması üzrə

### *təkliflər sorğusu*

**Azərbaycan Milli Elmlər Akademiyası Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu**

**KONFRANS TƏDBİRLƏRİNİN KEÇİRİLMƏSİ ÜÇÜN HAZIRLIQLARIN SATIN ALINMASI ÜZRƏ TƏKLİFLƏR SORĞUSU ELAN EDİR.**

**Təkliflər 25.09.2019-cu il saat 12.00-a kimi qəbul olunur**
Əlaqələndirici şəxs: Paşayeva Mehriban İsmayıl qızı
Əlaqə nömrəsi: 012-490-13-29

***Tender komissiyası***

## Göyçay Rayon İcra Hakimiyyəti

### *kotirovka sorğusu elan edir*

**1. Göyçay Rayon İcra Hakimiyyətində cari təmir işlərinin görülməsi**
**2. Göyçay Rayon İcra Hakimiyyətinə digər maşın və avadanlıqların alınması**
**3. Göyçay Rayon İcra Hakimiyyətinə inventar alınması**

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 25.09.2019-cu il tarixədək qəbul olunur.Təklif zərfləri 26.09.2019-cu il tarixdə açılacaqdır. Maraqlanan təşkilatlar (020) 27-4-43-45 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**Əlaqələndirici şəxs: Kamran Kərimov**

***Tender komissiyası***

## Göyçay Rayon İcra Hakimiyyəti başçısının Müskürlü kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi

### *kotirovka sorğusu elan edir*

**1. Müskürlü kənd uşaq bağçasının təmiri işlərinin görülməsi**

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 25.09.2019-cu il tarixədək qəbul olunur. Təklif zərfləri 26.09.2019-cu il tarixdə açılacaqdır. Maraqlanan təşkilatlar (020) 27-4-43-45 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**Əlaqələndirici şəxs: Kamran Kərimov**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

***Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi Birgə Akademik İncəsənət Proqramının tətbiqi sahəsində müvafiq layihələrin həyata keçirilməsi üçün malların, işlərin və xidmətlərin təkliflər sorğusu metodu ilə satın alınmasını həyata keçirir***

Maraqlanan təşkilatlar 465-73-48 (daxili 141) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 03 oktyabr 2019-cu il saat 17:00-dək qəbul olunur. Əlavə məlumat üçün bu ünvana müraciət etmək olar:

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi, Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18.

**Əlaqələndirici şəxs: Samir Məmmədov**

***Tender komissiyası***

## İƏT-in Baş katibi Ermənistan baş nazirinin bəyanatı ilə bağlı dərin narahatlığını ifadə edib

İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd əl-Osaymin Ermənistan baş nazirinin Azərbaycanın işğal olunmuş ərazilərinə bu il avqustun 5-də səfər edərək orada səsləndirdiyi bəyanatla bağlı dərin narahatlığını ifadə edən açıqlama verib.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Baş katib Ermənistan rəhbərliyinin bu bəyanatı və Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünü pozan əməllərinin beynəlxalq hüququn prinsiplərinə və beynəlxalq ictimaiyyətin mövqeyinə məhəl qoymadığını və regional sülh və təhlükəsizliyə hədə təşkil etdiyini qeyd edib. O, münaqişənin sülh yolu ilə həlli üzrə BMT və İƏT nizamnamələrinin müddəalarına, Helsinki Yekun Aktına, BMT TŞ-nin 1993-cü il tarixli qətnamələrinə, İƏT-in müxtəlif qətnamələrinə istinad edərək, Ermənistan Respublikasını münaqişənin sülh yolu ilə həlli üçün BMT TŞ-nin müvafiq qətnamələri əsasında Azərbaycan Respublikası ilə sülh danışıqlarına çağırıb.

## Hava şəraiti kəskin dəyişəcək

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin verdiyi məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin qeyri-sabit keçəcəyi, sentyabrın 21-i səhər saatlarından başlayaraq şimal-qərb küləyinin saniyədə 18-23 metr olacağı, arabir 25-30 saniyəyədək güclənəcəyi gözlənilir. Gündüz yarımadanın bəzi yerlərində küləyin arabir 35-38 metr/saniyəyədək şiddətlənəcəyi ehtimalı var. Güclü küləyin sentyabrın 22-i səhərədək davam edəcəyi proqnozlaşdırılır. Sentyabrın 21-i axşama doğru, 22-si gecə və səhər yağış yağacağı, gecə saatlarında bəzi yerlərdə intensivləşəcəyi, şimşək çaxacağı ehtimal edilir.

Azərbaycanın rayonlarında sentyabrın 21-i şimal və qərb rayonlarından başlayaraq sentyabrın 22-si gündüzədək havanın qeyri-sabit keçəcəyi, şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağışın intensiv və güclü olacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Qərb küləyi əsəcək, 15-20, arabir 25-30 metr/saniyəyədək güclənəcəyi gözlənilir. Sentyabrın 21-də bəzi Kür vadisi rayonlarında küləyin arabir 35-38 metr/saniyəyədək şiddətlənəcəyi ehtimalı var. Çaylarda sululuğun artacağı, bəzi dağ çaylarından qısamüddətli daşqın və sel keçəcəyi bildirilir.

## Azərbaycan Respublikası Təhsil Nazirliyi Dövlət ümumtəhsil müəssisələrində çalışan təhsilverənlərin əlavə təhsili üzrə təlimlərin satın alınmasına dair

### *tenderə dəvət edir*

**Təkliflər sorğusu 6 LOT üzrə keçirilir:**

| Lotlar | Xidmətlərin adı | Müdavimlərin sayı (nəfər ilə) | Təlimin həcmi (akademik saat ilə) |
|---|---|---|---|
| I LOT Riyaziyyat fənnini tədris edən müəllimlər üçün ixtisasartırma təlimləri | Ümumi orta təhsil səviyyəsində riyaziyyat müəllimləri üçün məktəbdaxili qiymətləndirmənin təşkili metodikası üzrə ixtisasartırma təlimi | 2000 | 36 |
| | Ümumi orta və tam orta təhsil səviyyəsində çalışan riyaziyyat müəllimləri üçün riyazi situasiya tapşırıqlarının hazırlanması metodikası üzrə ixtisasartırma təlimi | 5000 | 36 |
| II LOT Təbiət fənlərini tədris edən müəllimlər üçün məktəbdaxili qiymətləndirmənin təşkili metodikası üzrə ixtisasartırma təlimləri | Ümumi orta təhsil səviyyəsində fizika müəllimləri üçün məktəbdaxili qiymətləndirmənin təşkili metodikası üzrə ixtisasartırma təlimi | 1000 | 36 |
| | Ümumi orta təhsil səviyyəsində biologiya müəllimləri üçün məktəbdaxili qiymətləndirmənin təşkili metodikası üzrə ixtisasartırma təlimi | 1000 | 36 |
| | Ümumi orta təhsil səviyyəsində coğrafiya müəllimləri üçün məktəbdaxili qiymətləndirmənin təşkili metodikası üzrə ixtisasartırma təlimi | 1000 | 36 |
| III LOT Humanitar fənləri tədris edən müəllimlər üçün məktəbdaxili qiymətləndirmənin təşkili metodikası üzrə ixtisasartırma təlimləri | Ümumi orta təhsil səviyyəsində Azərbaycan dili müəllimləri üçün məktəbdaxili qiymətləndirmənin təşkili metodikası üzrə ixtisasartırma təlimi | 2000 | 36 |
| | Ümumi orta təhsil səviyyəsində xarici dil müəllimləri üçün məktəbdaxili qiymətləndirmənin təşkili metodikası üzrə ixtisasartırma təlimi | 1000 | 36 |
| | Ümumi orta təhsil səviyyəsində tarix müəllimləri üçün məktəbdaxili qiymətləndirmənin təşkili metodikası üzrə ixtisasartırma təlimi | 1000 | 36 |
| | Ümumi orta təhsil səviyyəsində yazı işinin təşkili metodikası üzrə ixtisasartırma təlimi | 2125 | 36 |
| IV LOT İbtidai təhsil səviyyəsində tədris aparan müəllimlər üçün ixtisasartırma təlimləri | İbtidaitəhsilsəviyyəsindəməktəbdaxiliqiymətləndirməninteşkilimetodikasıüzrəixtisasartırmatəlimi | 1000 | 36 |
| | İbtidaitəhsilsəviyyəsindəşagirdlərdəoxuyub-anlamabacarıqlarınıninkişafetdirilməsimetodikasıüzrəixtisasartırmatəlimi | 2000 | 36 |
| | İbtidai təhsil səviyyəsində sinfin idarə edilməsi üzrə ixtisasartırma təlimi | 2000 | 24 |
| | İbtidai təhsil səviyyəsində musiqi fənninin tədrisi metodikası üzrə ixtisasartırma təlimi | 500 | 36 |
| V LOT İbtidai təhsil səviyyəsində dərs deyən müəllimlər üçün Azərbaycan dili və riyaziyyat fənlərinin məzmunu, ehtiyat dərsliklərin tətbiqi və metodikası üzrə ixtisasartırma təlimi. | İbtidai təhsil səviyyəsində dərs deyən müəllimlər üçün Azərbaycan dili və riyaziyyat fənlərinin məzmunu, ehtiyat dərsliklərin tətbiqi və metodikası üzrə ixtisasartırma təlimi | 5000 | 72 |
| VI LOT İbtidai sinif müəllimləri üçün məktəbəhazırlıq qruplarında işin təşkili metodikası üzrə fərdi ixtisasartırma təlimləri (mentorluq xidməti) | İbtidai sinif müəllimləri üçün məktəbəhazırlıq qruplarında işin təşkili metodikası üzrə fərdi ixtisasartırma təlimləri (mentorluq xidməti) | 4500 | 18 |

İddiaçıların ixtisas uyğunluğu göstəriciləri ilə bağlı aşağıdakı sənədləri **25 sentyabr 2019-cu il 16:00-dək** Təhsil Nazirliyinə təqdim edilməlidir:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olmasının təsdiqi kimi iddiaçının ali təhsil və ya əlavə təhsil müəssisəsi olmasının sənədli sübutu;*
- *satınalma prosedurunun başlanmasından əvvəlki 5 (beş) il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmamasının təsdiqi kimi məhkəmə araşdırmalarına cəlb olunub-olunmaması barədə məlumat.*

Tender təklifi keyfiyyət və maliyyə (qiymət) təkliflərindən ibarətdir. Keyfiyyət və maliyyə (qiymət) təklifləri hər bir LOT üzrə ayrı-ayrı zərflərdə və eyni tarixdə təqdim olunmalıdır. Keyfiyyət təklifi üzərində satınalan təşkilatın və iddiaçının adı, ünvanı, LOT-un nömrəsi qeyd olunmuş bir ədəd əsli və bir ədəd surəti ayrı-ayrı bağlı, imzalanmış və möhürlənmiş zərflərdə (qutularda) təqdim olunmalıdır. Təlimlərin həyata keçirilməsi üçün təklif olunan ümumi yanaşmanın təsviri, iş planı, təlimin proqramı və metodiki vəsait, təlimçilərin tərcümeyi-halları (CV-ləri) keyfiyyət təklifinin tərkib hissəsi kimi təqdim olunmalıdır.

İddiaçı iştirak etdiyi hər bir LOT üzrə maliyyə təklifini, təklifin təqdimat vərəqəsini, təklifin dəyərinin 1 (bir) faizi həcmində olan bank təminatını "Dövlət satınalmaları haqqında" qanunun və şərtlər toplusunun tələblərinə uyğun hazırlayaraq bir ədəd əsli və bir ədəd surəti ayrı-ayrı zərflərdə olmaqla ümumi bir zərfdə təqdim edir. Hər bir zərf üzərində satınalan təşkilatın və iddiaçının adı, ünvanı, LOT-un nömrəsi qeyd olunmaqla iddiaçı tərəfindən imzalanıb möhürlənməlidir.

İddiaçılar tender təklifini (zərflər açıldığı gündən sonra 30 bank günü qüvvədə olmalıdır) və tender təklifinin qiymətinin 1 (bir) faizi həcmində bank təminatını (qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır) **27 sentyabr 2019-cu il saat 16:00-dək** Tender komissiyasına təqdim etməlidirlər. Keyfiyyət və maliyyə (qiymət) təklifləri olan bağlamaların (zərflərin) açılışı **30 sentyabr 2019-cu il saat 15:00-da** Təhsil Nazirliyində keçirilir (iddiaçıların nümayəndələri tender iclasında iştirak edə bilərlər).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçirilir. Tenderin prosedur qaydaları, təkliflərin təqdim edilməsi və təkliflərin qiymətləndirilməsi və müqayisəsi "Şərtlər toplusu"nda öz əksini tapır. Tender iştirakçısı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu, "Əsas şərtlər toplusu"nun məzmunu, o cümlədən iştirakçılar üçün təlimatlar, tender sənədlərinin formaları, müqavilə şərtləri, texniki şərtlər və s. ilə tanış olmalıdır. İddiaçının bu sənədlər və tender təklifi haqqında tam təsəvvürü, məlumatı olmaması və "Şərtlər toplusu"nun tələblərinə uyğun gəlməyən təklif verməsi onun təklifinin kənarlaşdırılması ilə nəticələnə bilər.

İddiaçılar iştirak etdiyi LOT(lar) üzrə yalnız bir tender təklifi verə bilər.

Təklifləri qiymətləndirərkən və müqayisə edərkən "Şərtlər toplusu"nda müəyyənləşdirilən keyfiyyət tələblərinə cavab verən yerli mallar (işlər və xidmətlər) üzrə tender təkliflərinin xeyrinə xaricdən idxal olunan eyni malların təklif edilən qiymətinin 20 faizi həcmində güzəştli düzəliş tətbiq edilir.

İddiaçıların təklifi, həmçinin tender ilə əlaqədar bütün yazışmalar və sənədlər Azərbaycan dilində həyata keçirilməlidir. Qiymət təklifləri Azərbaycan manatı ilə verilməlidir.

Xidmətlər satınalma müqaviləsinin imzalanması tarixindən **6 ay ərzində** başa çatdırılmalıdır.

**Əlavə məlumat üçün tender üzrə əlaqələndirici Gülüstan Cəfərovaya müraciət etmək olar. Əlaqə məlumatları: Ünvan: Bakı şəhəri, Xətai prospekti, 49. Telefon: 599-11-55 (daxili 5296), e-mail: gulustan.jafarova@edu.gov.az**

***Tender komissiyası***

## Dünya iqlimin müdafiəsinə qalxdı

Dünən dünyanın onlarca ölkəsində iqlimi müdafiə etmək məqsədilə etiraz aksiyaları keçirilmişdir. Qlobal tətildə 200-ə yaxın təşkilat və ictimai hərəkat iştirak etmişdir. Son məlumata görə, tədbirlər təxminən 160 ölkənin şəhərlərində baş tutmuşdur.

Ən kütləvi nümayişlərdən biri Nyu Yorkda keçirilmişdir. Şəhərdəki 1700-ə yaxın məktəbin şagirdləri etiraz aksiyasına qatılmaq üçün dərsdən azad olunmuşlar. Nümayişçilərə bu etiraz hərəkatının təşəbbüskarı - isveçli məktəbli və ekofəal Qreta Tunberq qoşulmuşdur.

Almaniyada 500-dən çox aksiya və nümayiş keçirilmişdir. Dünən hökumət iqlimin müdafiəsi üzrə tədbirlər paketinə baxmışdır.

Xatırladaq ki, ilk belə kütləvi tətil cari ilin martında baş tutmuşdur. O vaxt Almaniyanın şəhərlərində 300 min nəfərə yaxın adam tətilə qoşulmuşdu.

# Beynəlxalq aləm

## Moskva Vaşinqtonu kosmosda silah yerləşdirməkdə ittiham edir

ABŞ kosmosda silah yerləşdirmək planını reallaşdırmağa başlamışdır. Bu barədə Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov "Rusiya qlobal siyasətdə" jurnalı üçün yazdığı məqalədə məlumat vermişdir. Onun dediyinə görə, Vaşinqton kosmik məkanda silah yerləşdirməyə universal moratorium qoymaqla bağlı bütün təklifləri rədd edir.

İyul ayında Lavrov bildirmişdi ki, ABŞ-ın kosmosa silah çıxarmaq planı Rusiyanı narahat edir. Çünki bu, yeni sürətlə silahlanmaya gətirib çıxara bilər.



Martda məlum olmuşdur ki, Pentaqon 2023-cü ildə Yerətrafı orbitdə ballistik raketləri yaxalamaq üçün nəzərdə tutulmuş neytron silahı sınaqdan çıxarmağı planlaşdırmışdır. BEAR (Beam Experiments Aboard a Rocket) şüa silahı hələ 1989-cu ildə kosmosda uğurla sınaqdan keçirilmişdir. Hazırda isə qurğunun qabaritlərinin azaldılması məsələsi həll olunmuşdur.

Apreldə Pentaqonun başçısının səlahiyyətlərini icra edən Patrik Şenahan demişdi ki, mümkün qlobal münaqişədə ABŞ-ın effektivliyi kosmik silahdan asılıdır. O, Rusiya və Çində bu cür texnologiyaların inkişafını Amerikanın təhlükəsizliyinə real təhdid kimi qiymətləndirmişdir.

## Tunisin devrilmiş prezidenti vəfat etdi

Tunisin devrilmiş prezidenti Zeynalabdin ben Əli müalicə olunduğu xəstəxanada dünyasını dəyişmişdir. Siyasətçinin 83 yaşı var idi. Bu barədə TRT telekanalı xəbər verir.

Zeynalabdin ben Əlinin vəkili Münir ben Salih sosial şəbəkədə bildirmişdir ki, onun müvəkkili Səudiyyə Ərəbistanının Ciddə şəhərindəki xəstəxanada vəfat etmişdir.



Sabiq prezident ötən həftə ağır vəziyyətdə xəstəxanaya yerləşdirilmişdi. Xatırladaq ki, Zeynalabdin ben Əli 1987-ci ildən Tunisə rəhbərlik etmiş və 2011-ci ildə baş vermiş "jasmin inqilabı"ndan sonra vəzifəsindən uzaqlaşmaq məcburiyyətində qalmışdır. O, həyatının son illərini Səudiyyə Ərəbistanı ərazisində mühacir kimi keçirmişdir.

## ABŞ-da qasırğa üzündən 900-dən çox reys təxirə salındı



ABŞ-ın Texas ştatını "İmelda" qasırğası vurmuşdur. Bu barədə ABC telekanalı xəbər verir. Ştatın hökuməti fövqəladə vəziyyət rejimi elan etmişdir.

Güclü külək üzündən Hyuston şəhərinin hava limanları 900-dən çox aviasiya reysini təxirə salmışdır. Küçələri su basmış, bəzi yerlərdə su bir metrdən çox hündürlüyə qalxmışdır. Su basmış evlərin sakinləri təxliyyə olunurlar. Cefferson rayonunda qasırğa bir kişinin həyatına son qoymuşdur.

Hazırda qasırğanın mərkəzi Hyustondan 210 kilometr şimal-qərbdədir və saniyədə 6,3 metr sürətlə şimala doğru hərəkət edir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9028
Sifariş 3087
Qiyməti 40 qəpik